POL STRATERN



# 90 DƏQİQƏDƏ SOKRAT

BAKI
FƏLSƏFƏ
AKADEMİYASI

Pol Stratern

# 90 Dəqiqədə Sokrat

Pol Stratern

**90 Dəqiqədə Sokrat**

Tərcüməçi: **Araz Əliyev**

Redaktor: **Qoşqar Abbas**

Korrektor: **Şahlar Ruhi**

Dizayn və tərtibat: **QR**

57 səh.

© Paul Strathern, 1997

© Bakı Fəlsəfə Akademiyası, 2020

www.bakuphilosophy.com

bakuphilosophy@gmail.com

## Pol Stratern

Şotland-İrland əsilli yazıçı Pol Stratern 1940-cı ildə Londonda doğulub. Dublin Trinity kollecində fəlsəfə təhsili alıb. 1972-ci ildə *"Həbəşistanda bir fəsil"* adlı əsəri ilə Somerset Moeam mükafatına laiq görülüb. Beş romanı ilə yanaşı səfər təəsüratları, elm, fəlsəfə, tarix, ədəbiyyat, tibb və iqtisadiyyat mövzulu çoxsaylı kitabların da müəllifidir. Kimya tarixi ilə bağlı *"Mendeleyevin arzusu"*(2000) əsərinə görə Aventis mükafatına laiq görülüb. İqtisadiyyat tarixi ilə bağlı araşdırmalarının yer aldığı *"Dr. Strenclovun oyunu"*(2001) ilin *"Google business"* kitabı seçilib. *"90 dəqiqədə filosoflar", "Böyük düşüncə: Dünyanı dəyişdirən elm adamları"* kimi qısa kitab seriyalarının müəllifidir. Yetəri qədər ağır mövzular haqqında şotland açıqlığı və irland yumoru ilə olduqca aydın şəkildə yazan müəllif Kinqston Universitetində riyaziyyat, elm və fəlsəfə üzrə mühazirələr oxumuş, əsərləri iyirmidən çox dilə tərcümə edilmişdir.

Məşhur əsərləri arasında "*Mediçi: Renessansın xaç atası"*(2003), *"Napoleon Misirdə"*(2007), *"Rəssam, filosof və döyüşçü: Leonardo, Makiavelli və Borcia - qaçınılmaz gizli müqavilə"*(2009) *"Venesiya ruhu: Marko Polodan Kazanovaya"*(2012), *"Periodik cədvəl"*(2015) yer alır. Ən sonuncu kitabları arasında *"Borcialar"*(2019), *"Yüksəlmə və çöküş: On imperiyada dünya tarixi"*(2019) kimi maraq doğuran əsərlər var. Pol Stratern hazırda Londonda yaşayır.

## Akademiyadan

"90 dəqiqədə Sokrat" Bakı Fəlsəfə Akademiyasının sayca ikinci kitabıdır. "Hər kəs üçün fəlsəfə" ideyasına sadiq qalaraq daha çox oxucunu fəlsəfə ilə tanış etmək, dilimizdəki mənbə məhdudiyyətini aradan qaldırmaq məqsədi ilə kitabı oxucularımıza təmənnasız elektron formada təqdim edirik.

Kitab Bakı Dövlət Universitetini fəlsəfə tarixi ixtisası üzrə doktorantı Araz Əliyev tərəfindən heç bir qarşılıq güdülmədən, təmənnasız olaraq tərcümə edilmişdir. Kitabın tərcümə prosesi ilk öncə türk dilindəki nəşri üzərində başlanılmışdır. Lakin daha sonra bu nəşrdəki çatışmazlıq və xətalar nəzərə alınaraq rus dilinəki nəşrinə müraciət olunmuşdur. Rus dilindən tərcümədə göstərdikləri yardıma görə Gülarə İsmayılova və Cavidan Hacıyevə Akademiyamız adından təşəkkürlərimizi bildiririk. Ən sonda isə kitabın orjinal nəşri əldə olunmuş, kitab orjinal formaya uyğun tərcümə və korrektə edilmişdir.

Bakı Fəlsəfə Akademiyası olaraq türk dilindən Azərbaycan dilinə tərcümə edilən kitabların böyük əksəriyyətini, həmçinin digər dillərdən qarşılıqsız tərcümə edilən kitabları təmənnasız və ya elektron formada yayımlayacağıq.

Hörmətlə,
Bakı Fəlsəfə Akademiyası
Bakı, 2020

## Məndəricat


Ön söz | 7

Sokratın həyatı və fikirləri | 14

Son söz | 40

Sokrata aid edilən bəzi müşahidələr | 45

Əhəmiyyətli fəlsəfi hadisələrin xronologiyası | 51

Sokratın həyatının xronologiyası | 54

Sokrat dövrünün xronologiyası | 55

Tövsiyə olunun ədəbiyyat | 57

# Ön söz

Başlanğıcda dünya var idi və həqiqətən də haqqında heç nə bilmirdik. Buna rəğmən həyatda qalmağı bacardıq. İlk filosof dünya haqqında fikirlər yaratmağa çalışan çaşğın, daş dövründən qalma insan idi: Nə baş verirdi? Bütün bu olanlar nə demək idi?

Min illər ərzində insanların bu suallara tapdığı cavablar fəlsəfə ilə o qədər də əlaqəli deyildi. Təməlləri mövhumat, əfsanə və dinə əsaslanırdı. Bu suallara fəlsəfi ruhda cavab verən ilk xalq e.ə. VI əsrdə yaşamış qədim yunanlar idi. Onlar metafizik mumbo jumbo[1] ilə bulandırılmamış ağıl və müşahidədən istifadə edirdilər.

Bəşəriyyətin inkişafındakı bu böyük addımın Tanrı tərəfindən unudulmuş Egey dənizi sahillərində necə edildiyi indiyə qədər sirr olaraq qalır. Həmin dövrdə çinlilər, babillilər və qədim misirlilər daha yüksək inkişaf səviyyəsi ilə fərqlənirdi, onların sivilizasiyası nəhəng və güclü idi. Onlar həmçinin digərlərinə nisbətən daha inkişaf etmiş vasitələrə malik idilər və riyaziyyatı daha yaxşı bilirdilər. İpək istehsalı, piramida tikmək və günəş tutulmasını proqnozlaşdırmaqdakı bacarıqları qədim yunanların imkanlarını qat-qat üstələyirdi. Çinlilərin, babillilərin və qədim misirlilərin qarışıq, həmçinin çətin dini inanclarını Olimp tanrılarının sərgüzəştləri

1 Mumbo jumbo – insanın ağlını qarışdıran və başa düşülməyən dili ifadə etmək üçün istifadə edilən ifadə. Eyni zamanda batil inanclar dinləyicinin ağlını qarışdırmağı hədəfləyən ritualları və başa düşmədiyi dilləri ifadə etmək üçün də istifadə olunur.

haqqındakı Yunan mifləri ilə müqayisə etsək, bu müqayisə yunanların xeyrinə olmayacaqdır. Bu din öz inkişafının uşaqlıq mərhələsində ilişib qalmışdı (məsələn, insan qurban vermək daha yetkin dini sistemlər üçün xarakterik idi).

Lakin bu sirrin qismən izahı qədim yunan mədəniyyətinin uşaqlığında gizlənmiş ola bilər. O olmadan indiyə qədər Qərb mədəniyyətinin təməli sayılan Qədim Yunan mədəniyyətinin heyrətamiz çiçəklənməsi baş verə bilməzdi. Yunanların önəmsiz dini teoloji və intellektual fərziyyələr üçün yer qoymurdu. Yunanlara qədər dünya nizamı ilə bağlı insanların ağıllarında ortaya çıxan hər hansı suallar öz cavablarını dində tapırdı. Bunun nəticəsində isə metafizika və xurafat qaçınılmaz şəkildə düşüncə və müşahidə prosesinə daxil olurdu. Babillilərin astronomiyası astrologiyanın güclü təsirinə məruz qalmışdı. Misirlilərin riyaziyyatı dini xurafatlarla dolu idi. Qədim Yunanlar isə ağıllı suallar verməyə başlayanda onların mədəniyyəti bu cür mirasla yüklənməmişdi. Onların düşüncələri real dünyada azad şəkildə yüksəlməyə başlamışdı.

Bəlkə də, məhz buna görə Qədim Yunan mədəniyyəti həqiqətən heyrətamiz sürətlə inkişaf etməyə başladı. Məsələn, Yunan tragediyası bir nəsil ərzində uydurma və ibtidai dini ritualdan mürəkkəb (qarışıq) drama doğru inkişaf etmişdi (demək olar ki, bu günə qədər formasını çox az dəyişib). Hələ üstəlik bunlar bir nəslin həyatı ərzində baş verib. Fəlsəfə haqqında da eyni sözləri demək olar: e.ə. VI əsrin ortalarında meydana gələrək növbəti əsrin axırında bir çoxlarının indi də fəlsəfənin görkəmli nümayəndəsi olaraq gördüyü Platonu dünyaya bəxş etdi. Bu baxımdan yunan fəlsəfəsinin e.ə. V əsrdəki nailiyyətləri hələ də aşılmamış qalır və yalnız XX əsrin fəlsəfəsi yeni keyfiyyət və böyük çeşidlilik nümayiş etdirir.

Bütün bu suallara sadə fəlsəfi cavab tapan ilk filosof Anadoluda yaşamış qədim yunanlı-Miletli Fales idi. Bizə məlumdur ki, o e.ə. 585-ci ildə baş vermiş Günəş tutulmasını proqnozlaşdırmağı ilə məşhurlaşmışdı (o yəqin ki, bu məlumatları Babil mənbələrindən köçürmüşdü) Fales, ilk həqiqi filosof olaraq xatırlanırdı, çünki izahları mifologiyaya yox, öz müşahidələrinə əsaslanırdı. Bu, iddiaların doğru və ya yanlış olduğunu müəyyən edəcək tənqidi nəzarəti əlçatan edirdi. Falesin ən əsas tezisi bütün varlıqların əsasının su olduğu idi. Bu yanılması ilə Fales gələcəkdəki bütün fəlsəfə üçün istiqamətləndirici olmuşdu. Falesdən sonra fəlsəfə sürətli çiçəklənmə yaşamışdı. Filosofların sayı artmış, hamısı da dünyanın əsası ilə bağlı fərqli açıqlamalar irəli sürmüşdülər. Buna görə də, dünyanın əsasının su deyil hava, daha sonra od və nəhayət işıq zərrəcikləri olduğu düşünülmüşdü. Bu dövrün filosoflarını (e.ə. VI əsrin ortaları - V əsrin ortaları) adətən pre-sokratiklər adlandırırlar. Əksər hallarda onların fəlsəfi əsərlərindən yalnız fraqmentlər-yazılı və ya digər mənbələrdə onlara istinad şəklində qalıb.

Buna baxmayaraq, bir çoxlarının adları ilə tanışıq. Riyazi teoremi ilə məşhur olan Pifaqor (ciddi şəkildə desək, özünün kəşf etmədiyi) rəqəmlərin musiqidə əsas rol oynadığını kəşf etmişdi (harmoniya say nisbətlərindən asılıdır). Bu onu nəticədə dünyanın rəqəmlərdən ibarət olduğu fikrinə gətirmişdi. Belə bir nəzəriyyə ilk baxışdan görünə biləcəyi qədər mənasız deyil. Məsələn, Eynşteyn kainatın riyazi ifadələr vasitəsilə dərk oluna və izah oluna biləcəyini hesab edirdi.

Müasir dövrdə alimlər də dünyanın rəqəmlərdən ibarət olmadığı fikrinə bağlıdırlar, amma yenə də rəqəmlər kvarklardan kvazarlara qədər dünyanın təsviri və müəyyən edilməsində əsas rol oynayırlar. Müasir elmi qabaqlayan daha bir pre-sokratik filosof

Demokrit idi. O, hesab edirdi ki, dünya atomlardan ibarətdir (bu elm adamlarının bu düşüncəyə gəlməsindən iki min il əvvəl baş vermişdi).

Anaksaqor ilk Afinalı filosof idi, lakin dəqiq bilinir ki, o, Afinanın yerlisi deyildi. Onu Periklin qərarı ilə Afina təhsilinin keyfiyyətini qaldırmaq üçün İoniyanın Klazomen şəhərindən gətirmişdilər (Kiçik Asiya). Anaksaqoru həqiqətən böyük filosof hesab etmək çətindir. Dünyanın tək bir maddədən ibarət olduğunu izah etmək ənənəsindən imtina etmişdi və dünyanın bir çox maddədən ibarət olduğunu mövqeyində israr edirdi. Həqiqətən də hər şey hər şeydən ibarət idi. Bu yolu izləyən Anaksaqor, hətta bitkilərin də xüsusi bir ağlının olduğunu, qarın qismən qara və suyun tərkibində quru elementlər olduğu ilə razılaşmağa məcbur olmuşdu. Anaksaqor ideya olaraq bu cür anomaliyalara sahib olmağına baxmayaraq, onun fəlsəfəyə verdiyi töhfələri əhəmiyyətli hesab etmək lazımdır. Məhz o, afinalıları fəlsəfə ilə tanış etmişdi. Həmçinin o, Sokratın müəllimi idi və onu fəlsəfə ilə tanış etmişdi.

Bir mənbəyə görə, Anaxaqor, sonradan Afinanın qızıl dövrü ərzində aparıcı siyasi qüvvəyə çevrilən Periklin də müəllimi olmuşdu (e.ə. 440-ci illərin ortalarından 430-cu ilin sonlarına qədər). Bu dövrdə Parfenon inşa edildi, ən böyük yunan tragediyaları yarandı, Fidinin heykəli və (onun Zevs heykəli qədim dövrdə dünyanın yeddi möcüzəsindən biri olmuşdu) Sokratla klassik fəlsəfə meydana gəldi. Anaksaqorun Periklə təsir etməkdə hansı rol oynadığı bilinmir (əgər bir rol oynayıbsa). Başqa bir şey məlumdur: Anaksaqor Günəşin çox böyük isti bir qaya olduğunu və Ayın da Yerdən yaradıldığını iddia edirdi.  Anaksaqor bu cür fikirləri dilə gətirdiyi üçün (taleyin ironiyasi ilə həqiqətə ən yaxın olanlar) onu dinsizliklə günahlandırıb təqib etməyə başladılar. O, məcbur oldu ki, Afinadan

qaçsın və oranı həmişəlik tərk etsin. Bu, fəlsəfənin təhlükəli olduğu hesab edilərək ciddi şəkildə qəbul olunduğunun ilk real sübutudur.

Anaksaqor dərslərinin əvvəlində Sokrata fəlsəfənin həm ciddi, həm də təhlükəli olduğunu bildirmişdi. Sokrat bu nəsihətlərə məhəl qoymadı. Anaksaqorun ilk nəsihətinə əməl etməməyin nəticəsində Sokrat ən əhəmiyyətli filosoflardan biri oldu. İkinci nəsihətinə əməl etməmək isə Sokratın həyatı bahasına başa gəldi. Bu yeni düşüncə forması doğulduğundan sadəcə bir əsr sonra öz qızıl dövrünü yaşamış və bizə bütün dövrlərin ən böyük üç filosofunu təqdim etmişdi. Bunlardan ilki çılğın Sokrat idi.

Fəlsəfə ilə məşğul olacağam deyə Afina küçələrində gəzməklə o qədər çox vaxt itirmişdi ki, nəsə yazmaq üçün vaxt tapa bilməmişdi. Onun təlimini məşhur tələbəsi Platon vasitəsilə tanımağımızın ən vacib səbəbi də məhz budur. Bunları yerbəyer etmək isə özü-özlüyündə problemdir və hansı fikrin kimə aid olmağını müəyyən etmək bu səbəblə çox çətindir.

Sokrat dialektika adlanan olduqca neqativ-aqressiv üslublu tənqidi metodunu (sorğu-sual etməklə cavab almaq) formalaşdırmışdı. Bu metodla rəqiblərinin iç üzünü ortaya çıxarmaqla yanaşı, həqiqətə çatmaq yolunu da tapmışdı. Platon məşhur dialoqlarında bu söhbətlərin ruhunu tutmağı bacarmışdı. Bu arada Platonun daha ənənəvi iş anlayışı və həyat tərzi, fəlsəfəyə sonunda nüfuz gətirmişdi. Ancaq o, səhvə düşmək kimi bir fəlsəfə ənənəsində israr edirdi.

Məsələn, həqiqi dünyanın ideyalardan, içində yaşadığımız dünyanın isə kölgələrdən yarandığına inanırdı. Bu gerçəklikdən kənar anlayışa rəğmən bir çox insan Platondan bəri bütün fəlsəfi külliyyatın onun əsərlərinə ancaq istinad təşkil edən topludan başqa bir

şey olmadığı fikrindədir. Əlbəttə ki, bu şişirdilmiş fikirdir. Ancaq bu gün hələ də boğuşduğumuz bir çox fəlsəfi problemin ilk dəfə Platon tərəfindən dilə gətirildiyi də həqiqətdir.

Filosof üçlüyünün növbəti nümayəndəsi Platonun tələbəsi olmuş Aristoteldir. Yaxşı təhsil almış Aristotel müəlliminin fəlsəfəni qəribə dialoqlar formasında açıqlamaq cəhdinə şiddətlə qarşı çıxmış, bunun əvəzinə isə çoxsaylı tədqiqatlar qələmə almışdı. Bu tədqiqatlarının çoxu daha sonra vəfasız davamçıları tərəfindən itirilmişdi. Aristotelin məntiq və kateqoriya sistemi ondan sonrakı iki min illik fəlsəfənin və elmin təməl daşlarını təşkil edirdi. Bunların nə dərəcədə əyri-üyrü olduğunu ancaq bir neçə əsr əvvəl fərqinə vara bildik. Aristotel də hər geniş miqyaslı şərhin əvvəl-axır yanlış ola biləcəyini bilirdi, amma bu, onu izahlar tapmaq yolunda dayandırmamışdı.

Antik Yunan dünyasında doğulan və əsrlər boyu öz yunan xarakterini qoruyan fəlsəfə olmasaydı, bu gün olduğumuzdan fərqli olardıq. Elmimiz olmayacaq və həqiqəti tapmağa istiqamətlənmiş axtarışlarımız əsas etibarilə xəyal gücündən və keçici həvəsdən ibarət olacaqdı: eynilə dövrümüzün siyasət, psixologiya və iqtisadiyyatında olduğu kimi. Filosof və teoloqların əsrlərdir çalışmalarına baxmayaraq etik dəyərlər də bu ağır vəziyyət içərisində saralıb solmaqdadır. Əxlaqi baxımdan bu gün iki min il əvvəlkindən daha yaxşı deyilik, əksinə necə olmağımız məsələsində artıq bir fikrimiz belə yoxdur.

İyirmi beş əsrdir davam etməkdə olan yanılmalar filosoflara nəticədə yanılmalarının heç bir rol oynamadığını göstərmişdi. Vacib olanın fəlsəfə ilə məşğul olmağın özü olmasında həmfikir oldular. Beləliklə, fəlsəfə eynilə şərab ustalığı və ya vergidən yayınma kimi boş vaxt doldurma fəaliyyətinə çevrildi. Nəticələri və ya

faydaları da oxşar dərəcədə ziddiyyətlidir. İnsan övladının fəlsəfə yaratmağa başlamasından bu yana ilk dəfə fəlsəfi bir sistem tapmağın gərəksizliyinə inanılmağa başlanıldı. Platon, Kant, Erensvar və Vitgenştayndan qaynaqlanan fəlsəfi ənənənin sona çatdığını da demək olar. Dünyanın tanıdığı ən yaxşı beyinlərdən bəzilərini özünə cəlb edən bu ağıl və müşahidə ənənəsi ilk olaraq Sokratla yetkinləşmişdi.

## Sokratın həyatı və fikirləri

Sokrat e.ə. 470-ci ildə o vaxtkı Afinaya iyirmi dəqiqəlik uzaqlıqda yerləşən Likavitos dağının ətəklərindəki bir kənddə dünyaya gəlmişdi. Atası daş ustası, anası isə mamaça idi. Əvvəlcə Sokrat ənənəvi olaraq atasının yanında şagirdliyə başlamışdı. Günümüzdə doğru olmadığına inandığımız şaiyəyə görə, Afina Akropolundakı **"Öz Vərdişlərində Üç Muza"**[2] onun əsəri idi. Daha sonra Anaksaqordan təhsil almağı üçün göndərilmişdi.

Sonralar Sokrat filosof Arxelayın[3] yanında təhsilinə davam etmişdi. Arxelay III əsrdə yaşamış bioqrafiya yazarı Diogen Laertlinin sözləri ilə ifadə etsək, Sokratı "çox pis hislərlə" sevmişdi. Antik Yunanıstanda da bu gün Şərqi Aralıq dənizi bölgəsində olduğu kimi eynicinsli münasibət qəbul olunan bir fərqlilik olaraq görülürdü. O vaxtlar adi bir şey kimi qəbul olunan bu cür cinsi münasibətlər ancaq xristianlığın doğulmasından etibarən dar düşüncəli təlimlər tərəfindən məzəmmət olunmağa başlanmışdı. Beləliklə, Anaksaqor öz tələbələrinə Günəşin alovdan bir ulduz olduğunu öyrətdiyi üçün Afinadan qaçmağa məcbur olarkən, tələbələri ilə intellektual münasibətdən daha çox başqa şeylər yaşayan Arxelay təqibə məruz qalmamışdı.

Arxelayla gənc Sokrat ilkin fəlsəfə ilə yanaşı, riyaziyyat və ast-

2 The Three Muses in Their Habits

3 Arxelay – e.ə V əsrdə yaşamış Yunan filosofu. Anaksaqorun tələbəsi və Sokratın müəllimi olduğu hesab olunur.

ronomiya təhsili də almışdı. Fəlsəfənin hələ 100 illik tarixi var idi və o vaxtlar günümüzdə nüvə fizikasının oynadığı rolu oynamaqda idi (öz dövrünün nüvə fizikası idi). Həqiqətən, fəlsəfə dünyası (tamamilə su, od və ya işıq zərrəcikləri və digərlərindən meydana gələn) ancaq müasir nüvə fizikasının öz gündəlik gerçəkliyimizə uyğun olduğu qədər gerçək dünya ilə əlaqəli idi. Çoxumuz gündəlik mövcudluğumuzun ən vacib xüsusiyyəti olan "elementar zərrəciklərlə" (mezonlarla) qarşılaşmağımıza çox da əhəmiyyət vermirik. Qədim yunanların da öz dövrlərində dünyalarının əslində qızıl balıq akvariumu, bir təndir və ya atəşfəşanlıq olduğunu deyən kəşflərə oxşar xoş münasibət bəslədiklərindən şübhələnirik.

Sokratın dünyanın qaynağı haqqında irəli sürülən fikirlərin insanlığa heç bir fayda vermədiyini görməyi uzun çəkmədi. Nə qədər qəribə olsa da, rasionallığa bu qədər meyilli mütəfəkkir olan Sokratı paradoksal olaraq, elmin əleyhdarı da saymaq olar. Bunda, güman ki, ona böyük pre-sokratik filosoflardan olan Eleyalı Parmenidin təsiri olmuşdur. Deyilənə görə, yeniyetmə yaşlarında Sokrat qocalan Parmenidlə rastlaşmışdı və ondan "çox şey öyrənmişdi". Parmenid dünyanın tək maddədən ibarət olmağı (məsələn, su və ya alov) və Anaksaqor kimi, dünyanın bütün mümkün maddələrin çoxluğundan ibarət olmağına inananlar arasında gedən qızğın mübahisəni həll etmişdi.

Bu barışmaz mübahisədə Parmenid qalib gəldi. O, sadəcə buna heç fikir vermədi. Parmenidə görə, bizə məlum olan dünya sadəcə görmə qabiliyyətimizin aldadılmasıdır (illuziyadır). Dünyanın nədən ibarət olmağı barədə bizim müzakirələrimizin heç bir mənası yoxdur, çünki dünya özü mövcud deyil. Bir reallıq var, o da Tanrıdır – sonsuz, dəyişməz və bölünməz olandır. Bu Tanrı üçün keçmiş və gələcək yoxdur. O, özlüyündə bütün kainatı və bu kainatda baş

verə biləcək hər şeyi ehtiva edir. “Hər şey birində” – Parmenidin əsas prinsipi bu cür idi. Bizim müşahidə etdiyimiz həmişə keçici olan çoxluq – dəyişilməz, özündə hər şeyi sığdıran Tanrının yalnız görünənliyidir. Dünyaya bu cür münasibət çətin ki, elmə bir fayda gətirsin. Bu dünyanın işlərinə niyə qayğı göstərməlisən, əgər onlar sadəcə illuziyadırsa?

Həmin qədim vaxtlarda elə hesab edilirdi ki, fəlsəfə hər cür biliyi öyrənir (yunanca “filosof” sözü “müdrikliyi sevən mənasını verir). Riyaziyyat, elm və kosmologiya özlərinin indiki vəziyyətlərində deyildilər, əsrlər boyunca onlar fəlsəfənin bir hissəsi sayılırdı. Yalnız XVII əsrdə Nyuton özünün şah əsərinə *“Philosophicae Naturalis Principia Mathematica”* (Təbiət fəlsəfənin riyazi başlanğıcları) adını verdi. Yalnız uzun illər keçəndən sonra, nəhayət ki, fəlsəfəyə metafizik (buna görə də həlli olmayan) sualların öyrənilməsi kimi baxırdılar. Fəlsəfənin həqiqətən də suallara cavab tapdığı hallarda isə, bu, məsələn riyaziyyat və ya fizika kimi ayrıca fənnə çevrilərək, fəlsəfə olmaqdan çıxırdı. Sonuncu bu cür misal kimi psixiatriyanı göstərmək olar. Hansı ki, bir çox suallara cavab verə biləcəyini iddia edirdi. Bundan sonra da o, müstəqil elmə çevrildi. (Əslində psixiatriya elmin fəlsəfi tələblərinə cavab vermir… Bu halda o, nəzərdə tutulur ki, elm eksperiment prosesində yoxlamalara məruz qala bilən müəyyən prinsiplər üzərində qurulmalıdır. Psixiatriyaya gəldikdə isə, qeyd edilən tələblər, paranoya, kəmağıllılıq kimi halların və psixiatriyanın digər formalarının təsviri zamanı dəqiq meyarların olmadığına görə, burada yerinə yetirilə bilməz).

Sokratın vaxtında bu sahələrinin hamısı, əlbəttə ki, fəlsəfə sayılırdı (Afina vətəndaşları isə filosoflara, demək olar ki, müasir insanların psixiatrlara baxdıqları kimi baxırdılar). Sokratın fəlsəfəyə yanaşması əlbəttə ki, sözün əsl mənasındakı kimi psixoloji idi (yu-

nanca "psixologiya" – "ağlın öyrənilməsi" deməkdir). Lakin Sokrat alim deyildi. Burada reallığı görməni aldadılmadan artıq bir şey saymayan Parmenidin təsiri özünü göstərirdi. Bu ideya Sokrata və onun xələfi Platona da öz mənfi təsirini göstərmişdi. Onların həyatı boyunca riyaziyyatda bəzi ixtiralar edilmişdi. Lakin bu riyaziyyatın zamansız, mücərrəd və varlığın ən son gerçəkliyi ilə əlaqədə olduğu üçün baş verirdi. Xoşbəxtlikdən, onların davamçısı olan Aristotel dünyaya fərqli yanaşırdı. O, bir çox mənalarda elmin əsasını qoyan şəxs oldu və fəlsəfəni reallığa açdı. Lakin, Sokrat tərəfindən inkişaf etdirilən qeyri-elmi, əslində elmə qarşı olan bu yanaşma, fəlsəfəyə məhvedici təsir göstərdi və bu təsirdən fəlsəfə əsrlər ərzində də xilas ola bilmədi.

Böyük ölçüdə Sokratın elm əleyhdarı olmağı səbəbilə Qədim Yunan dünyasının böyük elmi zəkalarının bir neçəsi fəlsəfə çərçivəsindən kənarda çalışmışdı. Arximed (fizikada), Hippokrat (tibbdə) və müəyyən mənada Evklid (həndəsədə) fəlsəfədən və dolayısı ilə də inkişaf edən bilik və mübahisə ənənəsindən təcrid olunmuşdular. Qədim Yunan alimləri bilirdilər ki, dünya yuvarlaqdır və Günəşin ətrafında dövr edir, hətta dünyanın çevrəsinin uzunluğunu da hesablaya bilirdilər. Onlar elektrik barədə məlumatlı idilər. Onlara bəlli idi ki, dünya maqnit sahəsinə malikdir.

Fəlsəfənin "universal müdrikliyi" çərçivəsindən kənarda qalan, faktlara əsaslanan bu cür bilik qırıntıları sadə axmaqlıqlar kimi qiymətləndirilirdi. Biz Sokrata çox şey borcluyuq, çünki o fəlsəfəni dayanıqlı idrak bünövrəsinə yerləşdirdi. Lakin, fəlsəfənin bir elm əleyhdarının himayəsi altında inkişaf etməsi faktını insanın öyrənməyinin ən böyük bədbəxliklərindən biri kimi qiymətləndirmək lazımdır. Bu sözlərlə itirdiyimizin dəyərini çətin ki, şişirtmiş olarıq. Orta əsrlərdə iynənin ucuna yerləşən mələklərin sayını hesabla-

mağa sərf olunun zəka enerjisi ilk dəfə qətiyyətlə Demokritin irəli sürdüyü atomların öyrənilməsinə xərclənə bilərdi.

Sokrata görə, dünya üzərində deyil özümüz üzərində düşünməli idik. Bu səbəblə də Delfi məbədi kahinlərinin qədim sözünü mənimsənmişdi: *"Gnothi Seauton"* (Özünü dərk et) (Bu, bəzən səhvən Sokrata da aid edilir. Əslində ilk filosof olan Fales tərəfindən də uydurulmuş ola bilər; Delfi məbədində yazıldığı da məlumdur).

Sokrat öz fəlsəfəsini öncələr Afinanın aqorasında tətbiq etmişdi. Bu bazarın qalıntılarını bu gün Akropolun aşağısında görmək mümkündür. Ən sevdiyi yer satıcıların öz mallarını sərgilədikləri Zevs (Eleteyros)[4] sütunlarının kəmər altlıqları idi. Sütunların qalıntılarını bu gün də çox asanca görmək mümkündür. Təəssüf ki, qalıntıların şimal tərəfi Afina-Pirey arasındakı metro tikintisinə qurban getmişdi və xərabələrin rahat səssizliyi onları sadəcə tel məftil ilə ayıran yaxınlıqda yerləşən Monastraki bazarının insan uğultuları, gurultulu Buzuki[5] musiqisi və qışqıran satıcılar tərəfindən pozulur. Günümüzdəki bu qarmaqarışıq və izdihamlı mühit Sokratın oralarda gəzib fəlsəfə ilə məşğul olduğu zamanın mühitindən çox da fərqli deyil.

Sokrat fəlsəfi fəaliyyətini dövrümüzün sövdəçi cins şalvar satıcıları, ətrafa Zorbanın[6] rəqs musiqilərini yayan cib radiolarının və yer fıstığı satıcılarının kədərli ağlaşmalarının tam mərkəzində da-

---

4 Zevs sütunları – Afina aqorasının şimal-qərbində yerləşən sütunlar. E.ə 425-410-cu illərdə Farslarla müharibədən sonra Eleteyros adlı təriqət tərəfindən Zevsin şərəfinə hazırlanmışdır.

5 Buzuki – dörd simli yunan musiqi aləti.

6 *Zorba* – ritmik yunan rəqs musiqisi. Mikis Teodorakis tərəfindən ənənəvi Kirit rəqslərindən bəhrələnilərək 1964-cü ildə bəstələnmiş musiqi Sirtaki rəqsi olaraq da tanınır.

vam edirdi. Yenə də bütün bu gurultuya rəğmən onu eşidən insanlar var idi. Üstəlik Sokrat Afinada bir xeyli səs-küyə səbəb olmuşdu, çünki otuz yaşına çatanda Delfili kahinlər onun bütün insanların ən müdriki olacağını demişdilər.

Sokrat buna inanmağın özü üçün çətin olduğunu düşünür və dürüst davranmayaraq heç bir şey bilmədiyini iddia edir. Ancaq yenə də öncəgörmənin gerçək olub-olmadığını öyrənmək üçün Afinanın digər müdrik şəxsləri ilə görüşür. Məqsədi onların nə bildiyini öyrənmək idi. Sokrat axmaq boşboğazlıqların iç üzünü və insanların yanılmalarını ortaya çıxarmaqda usta idi. Heç bir şey bilmədiyini iddia edərək qarışısındakından onun nə bildiyini açıqlamağını istəyirdi. Həmsöhbəti bu istəyə uyğun olaraq açıqlamalara başladıqda isə onun illuziyalarını ağıllı şəkildə formalaşdırdığı etirazları ilə sabun köpüyü kimi partladırdı. Sokrata əbəs yerə "Afinanın at milçəyi" demirdilər. Onun sual texnikası ilk baxışda göründüyündən daha çətin idi. Mübahisəni həll etmək üçün sualın əsasına enirdi. Bunun üçün isə ilk olaraq həmsöhbəti tərəfindən dilə gətirilən düşüncələrin əsaslandığı söz və anlayışları izah etmək gərəkli idi ki, ziddiyyətlər ortaya çıxarıla bilsin, həmçinin düşüncələrin nəticələri dəqiqləşsin.

Bundan başqa Sokratın insani zəiflikləri ortaya çıxara bilən kəskin müşahidə qabiliyyəti var idi. Rəqiblərini gülməli vəziyyətə salmaqdan çəkinməzdi. Mənbələrə görə, Sokratın bacarığı, ustalığı və hiyləgərliyi həmsöhbətlərini hövsələdən çıxaracaq dərəcədə təhrik etmişdi. Onun özünü ağıllı sayan, çoxbilmiş tərzi heç şübhəsiz ki, çoxsaylı düşmən, amma bunun yanında da onu izləyən gənclər arasından bir xeyli tərəfdar da qazandırmışdı.

Qısa müddət sonra Sokrat Afinanın "müdrik" adamlarının eynilə özü kimi, çox şey bilmədiklərini kəşf etdi. Nəticədə kahinlərin

haqlı olduğuna qərar verdi. Həqiqətən də o, hamısından daha müdrik idi, çünki heç nə bilmədiyini bilirdi.

Baxmayaraq ki, Sokrat özü üçün rasional və ikonoklastik (red: bütləri qıran, ənənələrə qarşı çıxan) bir metod mənimsəmişdi, amma bir çox baxımdan da o, hələ də öz zəmanəsinin övladı idi. Bir sıra şeyləri zarafat obyektinə çevirdiyi halda, Delfi kahinlərini danışdıranın tanrı olduğuna inanırdı. Bundan əlavə "ruh ölümsüz və əbədidir, ölümdən sonra isə bizim ruhlarımızın o biri dünyada mövcudiyyətini davam etdirdiyinə" qəti şəkildə inanırdı. Tanrılara mövhumata əsasən sitayiş etmirdi və mifologiya onun üçün komediyadan başqa bir şey deyildi, ancaq Sokrat bir tanrının var olmağı inancına sıx şəkildə bağlı idi. Buna sübut olaraq hər kəsin hər hansı bir tanrıya inandığı şəklində inanc formalaşdırmışdı. Sokratın bütün həyatını insanları məntiqsiz düşüncələrdən qoparmaqla keçirdiyi düşünülərsə, bu bir xeyli qəribə yanaşma idi.

Lakin Sokratın fəlsəfəsi heç də bütünlüklə müzakirə qaydaları və analiz metoduna həsr edilməmişdir. Bununla yanaşı o, bir sıra müsbət təkliflər də irəli sürmüşdü - bu o mənaya gəlir ki, Sokrat bəzən öz tənqidi dərmanının dadına dözməli olurdu. Belə ki, Platonun "Fedon" dialoqunun personajı olaraq Sokrat formalar və ya ideyalar nəzəriyyəsini irəli sürür. Bir çoxları bu nəzəriyyənin müəllifliyini Platonun adına yazır və hesab edirlər ki, Platon bu fikirləri Sokratın ağzı ilə deyib. Lakin Platon "Fedon" dialoqunu yazanda Sokratdan başqa bu dialoqun digər personajları sağ idilər. Beləliklə, güman etmək olar ki, əgər Platon vaxtının çox hissəsini məhkəmələrdə keçirmək istəmirdisə, bu personajların irəli sürdükləri fikirlər elə həmin insanların gerçəkdə inandıqları şeylər idi. Və çox güman ki, onlar bu fikirləri elə əsl Sokratla da müzakirə etmişdilər. Baxmayaraq ki, Platon öz dialoqunu daha çox faktiki mənbələrə is-

tinad edərək qurub, yenə də inandırıcı deyil ki, o, heç vaxt Sokrata məxsus olmayan fikirləri dedizdirmək üçün səhnəyə uydurma Sokrat çıxarsın. Platon həmçinin qeyd edirdi ki, "Sokrat tez-tez bu dəyərləri irəli sürürdü". Bu nəzəriyyənin Sokrata məxsus olması kifayət qədər aşkar olduğuna baxmayaraq yenə də adətən bu nəzəriyyə Platonun ayağına yazılır.

Bununla belə, görünür ki, tədqiqatçılar burada insan öz fikirlərini yazmayanda, ideyaların müəllifini müəyyən etməyin necə çətin olduğunu göstərmək istəyirlər (ola bilsin, məhz buna görə bizlərdən çoxumuz bu hiylədən bu qədər uzaqgörən şəkildə istifadə etmişik). Formalar-ideyalar nəzəriyyəsi barədə bir şeyi isə yəqin etmək olar: nə Sokrat, nə də Platon bunu fikirləşən ilk insanlar olmayıb. Bu şücaəti adətən Pifaqorun adı ilə bağlayırlar. Əvvəl gördüyümüz kimi musiqi sahəsindəki tədqiqatları Pifaqoru dünyanın rəqəmlərdən ibarət olmağı inancına gətirdi. Lakin Pifaqorun rəqəmlər barədə təsəvvürü bir çox mənada daha çox bizim forma barədə təsəvvürümüzə yaxın idi. Pifaqora görə, rəqəm və forma kimi mücərrədlər real dünyanın məğzini ifadə edirdilər. Məhz bu mücərrəd ideyalardan da bu dünyanın görünən, daimi dəyişikliklərə məruz qalan təzahürləri yaranıb (Göründüyü kimi burada biz Parmenidin xəyali dünyamızın hissələrini tam bütöv halında birləşdirən Varlıqdan ibarət olan həqiqət fikrinin aşkar izini görürük).

"Fedon" dialoqunda Sokrat formalar dünyasının təbiətini təsvir edir (və ya rəqəmlər, ya da ideyalar dünyasını. O, yunan sözü olan "eidos"dan istifadə edir. Bu bizim işlətdiyimiz "ideya" sözünün ilkin köküdür, lakin bu sözü müxtəlif cür tərcümə etmək olar: forma, ideya və ya fiqura, – yeri gəlmişkən, burada "rəqəm" və "forma" anlayışları mahiyyət olaraq üst-üstə düşürlər). Sokrata görə, formalar dünyası bizim hisslərimizə əlçatan deyil, bu yalnız insa-

nın fikri üçün əlçatandır. Biz "yumruluq" və "qırmızılıq" kimi anlayışlar barədə düşünə bilərik, lakin biz onları hiss etmirik. Hisslərimiz vasitəsi ilə biz yalnız konkret qırmızı topu qavraya bilərik. O, "yumruluq", "qırmızılıq", "elastiklik" və s. anlayışlardan yaradılıb. Bəs bu necə olur? Sokrata görə ayrı-ayrı əşyalar (predmetlər) öz xüsusiyyətlərini onları yaradan ideyalardan əldə edirlər. Bunu, məsələn, müəyyən forma əldə edən gips sarğısının obrazı üzərindən izah eləmək olar. Mücərrəd formalar – başqa sözlə desək, ideyalar konkret predmetə qəlib (cizgilər), ölçü və digər keyfiyyətlər (xüsusiyyətlər) verir.

Formalar dünyası tək real dünyadır. Üstəlik bu dünya universallığa da malikdir. Burada ayrılıqda götürüldükdə hər bir forma digərindən fərqlidir. Bu formalar dünyası bir iyerarxiyaya malikdir ki, bu iyerarxiya öz zirvəsinə Xeyirxahlıq, Gözəllik və Həqiqət kimi ideyalarda çatır. Konkret predmetləri qavrayaraq, biz xeyirxahlıq, gözəllik və həqiqət kimi abstrakt (mücərrəd) keyfiyyətlər barədə təsəvvür əldə edirik. Dünyaya sirli-mistik münasibət bu cürdür. Bu özlüyündə, hindlilərin yaxşı insan üçün şəffaf olan dünyanın Maya örtüyü olması barədə ideyasına oxşardır və güman ki, elə həmin ideyadan da yaranıb. Sokrata görə, bu universal ideyalar onların fəqinə varmağımıza səbəb olan dünyadan üstündür.

Xoşbəxtlikdən, bizim yaşadığımız dünyanın xüsusiliyini xor görən bu cür dolaşıq təlim heç də dəqiqlikdən tamamilə yoxsun deyil, çünki burada rəqəm ali ideyaların sinonimi olduğu üçün rəqəmləri öyrənmək ailə məqsədə çevrilir. Məğz kimi rəqəmlərin öyrənilməsi əsas iş elan edilir. Belə ki, riyaziyyata yunanlar tərəfindən maarifləndirici fəaliyyət kimi baxılır, əlbətdə yalnız özünün saf formasında. Çoxbucaqlı fiqurun bucaqların cəminin hesablanması kifayət qədər qəbul edilmiş bir şey idi. Lakin çəni doldurmaq üçün

neçə vedrə suyun lazım olması ləyaqətsiz bir iş hesab edilirdi. Bizim maddi dünyamızda bu, kifayət qədər praktik faydaya malik ola bilərdi. Bu cür yanaşma qaçınılmaz olaraq elmi həyatı praktik tərəfi ilə az bağlı olan aspektlərin öyrənilməsinə yönəldirdi. Həmçinin Qərb mədəniyyətinin bütün inkişaf dövrü ərzində saxlanılmışdır, bəzən isə bunun biruzəsini bizim günlərdə də görmək olar. Sokrat Periklin dönəmində yetişmişdi. Ellin dünyasının heç bir dövləti o dövrdə Afinanın gücü və mədəniyyəti ilə müqayisə oluna bilməzdi. Bu dövrün yenilikləri insanlıq tarixinin bütün gedişatına təsir göstərmişdi. O dövrdə fəlsəfə yetkinliyə çatdığı kimi "demokratiya" anlayışı ortaya çıxdı, riyaziyyat və digər sahələr üçün elmi metodlar inkişaf etdi. Bütün bunlar Sokratla birlikdə fəlsəfə çağının gəlişinə işarə edirdi.

Nisbi sabitliyin hakim olduğu Perikl dövrü e.ə 431-ci ildə Pelopones müharibəsinin başlanması ilə sona çatmışdı. Düşmənlərinə görə daha demokratik olan liman dövləti Afina ilə incəsənət zövqlərindən yoxsun olan militarist Sparta arasındakı toqquşmalar 25 il ərzində davam etmiş və Afinanın dövlət quruluşu bundan ciddi zərər görmüşdü. Həm müharibə, həm də onun siyasi nəticələri Sokratın həyatı üzərində müəyyənedici amil olmuşdu. Bu gün bizə, bəlkə də sıxıcı deyə biləcəyimiz ölçüdə məqbul olan fəlsəfəsini həyatın fanatiklik, özbaşınalıq və qorxu tərəfindən müəyyən edildiyi bir zamanda formalaşdırdığını da unutmamalıyıq. Sokratın həqiqəti tapmağa istiqamətlənmiş axtarışı dəyərlərin dəyişdiyi və müəyyənliklərin azaldığı, əxlaqi iqlimi bizə çox tanış gələn dövrdə həyata keçirilmişdi.

Pelopones müharibəsi baş verdiyi vaxt Sokrat "hoplit" (ağır silahlı, üçüncü sinif, qılınc və qalxanla silahlanmış piyada əsgər) olaraq orduya cəlb olunur. Sokratın həyatı haqqındakı sənədlər qis-

mən çox ziddiyyətlidir, ancaq hər kəs tək bir nöqtədə həmfikirdir: Görünüş olaraq Sokrat Afinanın ən çirkin kişilərindən biridir. Cılız və əyri ayaqları, top kimi göbəyi, tüklü boynu, eyni vəziyyətdəki çiyinləri və keçəl başı var idi (Rəvayətə görə, başı kiçik şişlərlə dolu idi və buna görə onu "kifir" adlandırırdılar). Geniş və çıxıntılı burnu hər kəs tərəfindən tanınırdı, gözləri azca önə əyik və dodaqları şişkin idi.

Sokrat sadəcə filosof kimi görünmür, eyni zamanda bir filosof kimi geyinirdi. Yaz, ya da qış olmağına baxmayaraq köhnə dizəqədər yapıncısının (*xlamida*) altına daima eyni paltarı geyinir və hava necə olursa olsun daima ayaqyalın gəzirdi. Peşə yoldaşı sofist Antifona görə "onun kimi yaşamağa məcbur olan kölə mütləq qaçardı". Buna rəğmən Sokrat böyük ehtimalla yaxşı əsgər idi.

Çirkin fikirləri olan ziyalılar çox sevilmir, ancaq Sokrat o qədər qəribə və gülməli adam idi ki, əsgər yoldaşları qısa müddət sonra onun təsirində qalırdı. Bolqarıstan dağlarından sərt küləklər əsəndə çox soyuq olan Şimali Yunanıstandakı Potidaias mühasirəsində iştirak etmişdi. Silahdaşları onu düzülüşlərə buz və qara rəğmən ayaqyalın, sehirli qısa köynəyi və ən çox sevdiyi yapıncı ilə gəldiyi üçün heyrətlə izləmişdilər. Afinalıların ordusu qış aylarında rəngarəng dəstə olurdu. Əsgərlər tapa bildikləri kürklərə bürünür, ayaqlarına keçə parçaları dolayırdılar. Yunan vazalarının üzərində təvir edilən əzələli və gənc çılpaq kişilərlə yaxından uzaqdan heç bir bənzərlikləri yox idi. Sokratın silahdaşlarını təsirləndirən ən vacib şey onun düşündüyü zamankı görünüşü idi. Eyni mühasirəyə qatılmış olan Alkibiades bir problem haqqında düşünmək üçün Sokratın çox erkəndən oyandığını özlərindən uzaqda dayanaraq bütünlüklə düşüncələrə dalmış şəkildə dünyanı unutduğunu qeyd edir. Yemək vaxtı gələndə Sokrat hələ də tərpənmirdi. Bu arada bəzi

həmvətənləri o dərəcədə təsirlənmişdilər ki, Sokratın bu tamaşanı nə qədər davam etdirəcəyini görmək üçün gecəni çadırlarından bayırda keçirməyə qərar vermişdilər. O, səhərə qədər bütün gecəni düşünərək keçirmiş, ardınca özünə gələrək səhər duası etmiş və heç bir şey olmamış kimi vəzifələrini yerinə yetirməyə başlamışdı.

Sokratın dərin transa girmək vərdişləri ilə əlaqəli belə hekayələrdən çox var. Bir sıra şərhçilər bu səbəblə onun katalepsiyadan[7], yəni hərəkətsiz qalaraq xarici təsirlərə qarşı cavabsızlıqdan şikayətçı olduğunu (əziyyət çəkdiyini) düşünürlər. Bu vəziyət onun ağlından da şübhə etməyimiz üçün səbəb ola bilərdi, çünki onun "bəzi səslər eşitdiyinə" dair sübutlarımız da var. Lakin sağlam bir insan ağlına və sabit bir şəxsiyyətə sahib olduğu ilə bağlı bir çox sübut üstünlük təşkil edir. Həqiqətən, bəzən Sokratın bütün fəlsəfəsinin yunan hiyləgərliyi və bir az da ironiya ilə yoğrulmuş, peşəkar şəkildə tətbiq edilmiş sağlam düşüncədən bir az daha artığı kimi görünür. Ətrafındakılar əsgərlik həyatının bütün çətinlikləri və sıxıntıları altında əzilərkən dərin trans vəziyyətinə keçə bilən bu adam, lazım gələndə böyük cəsarət nümunələri də sərgiləməyi bacarırdı. Alkibiades Sokratın özünü müharibə meydanının ortasında yaralı şəkildə yatarkən gördüyünü, onu öz çiyinləri üzərinə alaraq tələşsız bir şəkildə ağır silahlarla vuruşan düşmən əsgərlərinin arasından sıyrıldığını və həyatını xilas etdiyini deyirdi.

Platon gənc Alkibiadesin Sokrata necə aşiq olduğundan danışır. Buna inanmaq çətindir, insanın ağlına Alkibiadesin gözlərində problem olduğu düşüncəsi gəlir. Ancaq buna dair hər hansı bir sübut mövcud deyil.

---

7 *Katalepsiya* - bədənin əzələlərinin quruması. Xəstəliyinə tutulmuş şəxs qıcolma zamanı özündən asılı olmayaraq hərəkət etmə qabiliyyətini tam itirərək bir dəfə aldığı bədən vəziyyətini dəyişdirə bilmir.

Alkibiadesi dinləyək: “Onun səsini eşidəndə, mənim qəlbim sanki dini ekstaz vəziyyətindəki kimi daha sürətli döyünürdü” (Platon, “Simpozium”, 215e). Bu sözlər çox asan bir şəkildə təsir altında qala bilən və Sokratın müdrikliyinə heyran olan yeniyetmənin sözlərinə oxşayır.  Amma xeyr. Qədim dövr filologiya təhsili alan tələbələr tərəfindən çox sevilən (dosentlərin isə senzura qoymaqdan xoşlarının gəldiyi) bir bölüm vardır ki, Alkibiades burda Sokratı başdan çıxarmaq cəhdlərindən bəhs edir.

İlkin olaraq mühiti Sokratla bütün gün baş-başa qalacaqları şəkildə təşkil edir. Bütün ümidi söhbətin bir nöqtədə dəyişərək sözün sevilənin sevənlə duyğularını paylaşması məsələsinə gəlməsidir. “Gözləyirdi ki, Sokrat onunla indicə danışacaq, necə ki, sevənlər sevdikləri ilə şahidsiz danışırlar” (Platon, “Simpozium”, 217v). Amma Sokrat fəlsəfə mövzusunda qalır. Beləliklə, Alkibiades ona özü ilə gimnaziuma[8] gedib-getməyəcəyini soruşur. O zamanlarda bu gimnaziumlarda kişilər və cavan oğlanlar lüt şəkildə vücudlarını inkişaf etdirirdi. Alkibiades Sokratın özü ilə oraya gələcəyi təqdirdə məqsədinə çatmağın daha asan olacağını düşünmüş olmalı idi. Sokratı top kimi göbəyi, cılız, əyri ayaqları və keçəl başı ilə gimnaziumun ortasında çılpaq dayandığını təsəvvürünüzə gətirin.

Amma görünüşə görə bu hər cür romatikanı məhv edən vəziyyət Alkibiadesin cəsarətini heç bir şəkildə qırmamışdı, hətta Alkibiades ətrafda heç kim olmayanda Sokratla “güləş” oyununu belə apara bilmişdi. Yenə də aralarında heç bir şey baş verməmişdi.

Nəhayət, Alkibiades təklikdə qalanda Sokratı özü ilə görüş-

8 *Gimnazium* – yunanca “çılpaqlıq” mənasına gələn “gymnos” sözündən gəlir. Qədim Yunanıstanda fəaliyyət göstərən fiziki təlim məkanlarıdır. Burada bütün təlimlər və idmanlar çılpaq şəkildə icra olunurdu. İlk gimnaziumlar e.ə VI əsrə aid olduğu hesab olunur.

məyə razı sala bilir. Beləliklə, Alkibiades Sokratı öz evinə axşam yeməyinə dəvət etməyə və onu sərxoş etməyə qərar verir. Amma onu sərxoş etmək məsələsində uğurlu ola bilməmişdi. Sokrat çox yaxşı içki içməyi bacarırdı və bu məsələdə kimsə onun əlinə su tökə bilməzdi. Buna rəğmən onu gecə yarısına qədər evində məşğul etməyi bacarır və Sokrat gecəni dostunun evində keçirməyə məcbur olur. Şam yeməyindən sonra, onunla gecəyə qədər danışdı, Sokrat getməyə hazırlaşanda isə "Alkibiades" gecə olduğunu bəhanə edərək, onun qalmağa məcbur etdi. Platona görə, Alkibiades vəziyyəti bu cür izah edir: "Nəhayət, o axşam yeməyi sırasında istifadə etdiyi və mənimkinin yanında duran döşəkcəyə (divan) uzandı, otaqda bizdən başqa kimsə yox idi." (Platon, "Simpozium", 127e) Qaranlıqda Alkibiades Sokratın yanına soxulur və qolunu onun boynuna dolayır. Sokrat yenə də istəksiz davranır və nəticədə hər ikisi yuxuya məğlub olaraq "qardaş kimi" qol-qola yuxuya gedirlər. (Platon, "Simpozium", 129d) Dövrün ənənələri və mentaliteti nəzərə alınanda Sokratın Alkibiades kimi yaraşıqlı bir gəncə qarşı hisslərini cilovlaya bilmək bacarığı demək olar ki, fövqəlinsani iradə və özünü cilovlama olaraq dəyərləndirilə bilər.

Sokrat heç bir halda dünya nemətlərindən uzaq yaşayan biri deyildi. Onsuz da görünüşü və günümüzə qədər gəlib çatan sənədlər də bunun belə olmadığını ortaya qoyur. Ancaq o, bolluq içərisində də yaşamamışdı. İşləməkdən imtina etdiyi üçün maddi sıxıntıları var idi. Həyatının hər dəqiqəsini tanrı tərəfindən ona verilən vəzifəni yerinə yetirməyə, Afinalı həmşəhərlilərinə biliksizliklərinin səviyyəsini göstərməyə xərcləmək istəyirdi. Atasından özünə bir miqdar pul qalmışdı. Nüfuzlu dostları onu tez-tez yemək mərasimlərinə dəvət edirdilər. Deyilənə görə, Sokrat çox əyləncəli, səhərə qədər söhbət etməyə hazır və içməyi bilən bir qonaq idi. Bu yemək dəvətlərinə çox vaxt sadəcə kişilər qatılırdı, ancaq bunlar

heç də eynicinsli görüşlər demək deyildi. Bəzən qadınlar (*hetare*) da dəvət edilir. Sokrat da sərhədsiz yemək və içkinin yanında təklif edilən hər şeyi zövqlə qəbul edirdi.

Laertli Diogenin məlumatlarına əsasən Sokrat vaxtının bir hissəsini Afinalı bəzi yeniyetmələrə informativ ritorika dərsləri verməklə keçirirdi. Bu dərsləri Simon adlı bir ayaqqabı ustasının aqoranın sərhəd daşının yanındakı dükanında keçirdi. Köhnə bazar yerinin kənarında bu gün belə bu yazını görmək mümkündür: “Mən aqoranın sərhəd daşıyam”. Sərhəd daşı kiçik antik binanın yan tərəfindəki divarda dururdu. Altmışıncı illərdə burada aparılan qazıntılar zamanı bir yığın ayaqqabı mıxı və e. ə. V əsrə aid olduğu hesab olunan üzərində “Simon” yazılan su qabı tapılmışdı. Arxeoloqlar təsadüfən Sokratın dərs dediyi dükanı tapmışdılar.

Bir il əvvəl Afinada idim və o yeri görməyə getdim. Təməlin içərisindəki sahəni ölçdüm və dükanın 4x4 addımlıq bir yer olduğunu müəyyən etdim. Simonun içəridə işlədiyini, ara-sıra müştərilərinin gəlib getdiyini düşünsək, dükanın içərisində hər şey üst-üstdə olmalı idi. Şübhəsiz ki, müştərilər dükanın vəziyyəti haqqında zarafatlar etmişdilər. Bu cür şərtlər altında dərs deyə bilmək üçün insanın olduqca hiyləgər olması və dinləyicilərin marağını davamlı olaraq canlı tutması lazım idi. Saydığım bu iki cəhət çox təəssüf ki, filosofların uzun zamandan bəri sahib olmadıqları bir şeydir. Ancaq Sokratın böyük aktyorluq bacarığı var idi. Dedikləri tələbələri tərəfindən qəbul edilsin, ya da edilməsin dərsləri daima şən keçirdi. O, fəlsəfənin mübahisəsiz alternativ komediya ustası idi.

Bu məşğələlərdə Sokrat konkret olaraq nə öyrədirdi? Onun ən çox misal kimi çəkdiyi deyimlərindən biri bu idi: “Sorğulanmamış həyat ümumiyyətlə yaşamağa dəyər həyat deyil.” (Platon, “Sokratın Apologiyası”, 38a). Bu daha çox əqli əməklə yaşayan, zamanı yaxşı

hiss edən insanın yanaşmasıdır. Çox güman ki, yunan şəhər-dövlətləri ilk cəmiyyətlər olublar, hansılar ki, müəyyən dərəcədə azadlığa (demokratiyaya görə) və asudə vaxta sahib olmaq imkanına (quldarlığa görə) malik olan intellektual orta sinfə bənzəyən nəsə yaratmışdılar. Yunanların kifayət qədər vaxtları var idi ki, onlar öz fikirlərinin hara ağıllarına gəlsə uçuşunu müşahidə etsinlər və özləri sərbəst bir nəticəyə gəlsinlər. İstənilən orjinal düşüncə özünəməxsus boş vaxt tələb edir – bu fakt vicdanlı, lakin çox vaxt vasitəli olan, yaşamaq üçün çörəkpulu qazanmaq məcburiyyətində qalan insanların baxış sahələrindən kənarda qalır.

Sokrat bir insanın həqiqi mənliyinin onun ruhu olduğuna inanırdı. Özündən əvvəlki filosoflara görə ruh, bədən hərəkət etdiyində yatan, ancaq bədən yuxuda ikən oyanıq olan "həyatın daimi nəfəsi" idi. Başqa bir ifadə ilə bir növ ölümsüz şüursuzluq. Bu düşüncə Yunqun dövrümüzdəki düşüncəsinə də yad sayılmazdı. Sokrat ruhda daha çox ağıllı və ya axmaq, yaxşı və ya pis ola bilən şəxsiyyət görürdü. Başqa bir ifadə ilə ruh əxlaqi baxımdan məsuliyyətli olduğumuz bir şey idi. Ruhumuzu tanrı kimi olana qədər tərbiyə etməli olduğumuzu düşünürdü.

Yaxşı, bəs nə üçün? Sokrat bütün insanların xoşbəxt olmaq üçün cəhd göstərdiklərinə inanırdı. İnsanların xoşbəxtliyi əldə edə bilmələri isə ruhlarının vəziyyətinə bağlı idi. Amma insanların xoş xasiyyət olması, yaxşı olduğu görüntüsü verən, amma həqiqətdə yaxşı olmayan şeylərin arxasınca sürüklənmələrindən qaynaqlanırdı. Həqiqətdə nəyin yaxşı olduğunu kəşf etsək, daima xoş xasiyyətli olardıq. Beləliklə, insanlar da həm özləri ilə, həm də cəmiyyətlə mübarizə aparmazdılar. Bəlkə sadəcə bir filosof buna inanacaq dərəcədə saf ola bilərdi. Bizim dumanlı, tədqiq olunmamış xeyir anlayışına sahib olmağımızı iddia etmək asandır. Axı biz xeyiri

həyat reallıqlarına uyğunlaşdıraraq xeyir haqqında fikirləşməyə başlayanda, istər şəxsi, istərsə də ictimai mənada fikirlərimizin fərqlənməyə başladığını görürük. Öz vaxtını fəlsəfə barədə düşünməyə sərf etmək yaxşıdırmı? Qadınları səsvermə hüquqlarından məhrum etmək yaxşıdırmı?

Yunanlar kiçik şəhər-dövlətlərdə yaşayırdılar, bu isə onlar arasında razılığın axtarılmasına gətirib çıxarırdı. Bütün yunan şəhər-dövlətlərinin ən qüdrətlisi Afinada o dövr 42 min azad, böyük kişi var idi. Bundan başqa yunanlar mülayimliyə müqəddəscəsinə inanırdılar. Delfidəki Apollon məbədində daş üzərində daha bir məşhur deyim yonulmuşdu: “Həddindən artıq heç nə olmaz”. Çox güman ki, Sokratın xeyir haqqında təsəvvürünü onun şəxsi vəziyyətinin və həmçinin zəmanəsinin ona təsirinin vəhdəti nəticəsi kimi qiymətləndirmək olar. O zamanların Afinasının bütün əhalisi – qadınlar, uşaqlar, əcnəbilər və qullar da daxil olmaqla, təxminən 250 min nəfər idi. Lakin hüquqlarından məhrum olunmuş Afina sakinlərinin əksəriyyəti onların vəziyyətinin pis olmağı ruhlarının vəziyyəti ilə əlaqələndirirdilərmi – bu artıq başqa sualdır.

Sokrat 50 yaşına çatanda Ksantippa ilə evlənmişdi. Şovinist tarixçilər Ksantippanı “deyingən qadın” olaraq təsvir edirdilər, ancaq Sokratla keçirilən bir həyatın həqiqətən də asan olmaması gərək idi. Vaxtını küçələrdə insanlarla mübahisə edərək keçirən, evə bir qəpik belə pul gətirməyən dostları ilə davamlı olaraq içki məclislərinə getdiyi üçün (üstəlik pulsuz şəkildə) evinə hər dəfə bir vaxtda gələn və bütün filosoflar kimi qonşular tərəfindən məsxərəyə qoyulan bir insanla birlikdə yaşadığınızı düşünün (Bizim dövrümüzə gəlib çatan məsxərələrdən və geniş lətifə toplularından demək olar ki, dörddə biri filosofu heç nəyə yaramayan adam kimi təsvir edirlər).

Sokrata bir mübahisədə qalib gələn tək şəxsin Ksantippa olduğu deyilir. Vəziyyəti dəyərləndirdiyimizdə sıx-sıx qasırğalar yaşanmasına rəğmən Sokrat və Ksantippa bir-birinə çox yaxın olmalı idilər. Sokratın 3 oğlu olmuşdu və oğullarından heç biri atalarından nəsə öyrənməmişdi (Rəvayətə görə, çox normal həyat sürmüşdülər). Ksantippa Sokrata tez-tez deyinməyinə, onun yaşayışını tənqid etməsinə baxmayaraq, qeyri-adi bir insanla evli olduğunun da fərqində olmuşdu. Ona daim sadiq qalmış və sorğusuz, sualsız dəstək olmuşdu. Sokrat ölümə məhkum ediləndə isə heç bir şey onu təsəlli edə bilməmişdi.

Pelopones müharibəsi Afinalılar üçün biabırçı məğlubiyyətlə nəticələnəndə Sokrat 65 yaşında idi. Müharibənin qalibi Spartalı sərkərdə Lisandr gəmiləri ilə Pirey limanına yanaşır və "Otuz tiran" kimi xatırlanacaq Spartaya rəğbət bəsləyən hökumətin hakimiyyətə gəlməyinə gözətçilik edir. Bunun ardınca qorxu dolu qaranlıq dövr başlayır. Kütləvi həbslər və məhkumiyyətlər yaşanır, siyasi rəqiblər bir-birinin əmlakını ələ keçirir. Bu dövrdə bir çox demokrat Afinadan qaçır, amma Sokrat qalmağı seçir. Təəcüblüdür, amma ram edilə bilməyən fərdiyyətçiliyinə rəğmən Sokrat demokrat deyildi. Demokratik idarəetmə forması o çağda hələ iməkləmə dövrünü yaşayırdı və ara-sıra onu tətbiq edənlərin səlahiyyətlərini aşmağına, qaddar şəkildə radikal addımlar atmağına şahid olurdu. Afinada hərbi rəhbərlər belə ümumi səsvermə ilə seçilirdi. Bu metod bu gün də tətbiq edilən, rəhbərlərin zabitlər tərəfindən seçilməsi metodundan belə daha mənasız idi. Müharibənin pis idarə olunmağı və bunun nəticəsində Afinanın məğlub olmağının günahı demokratlara yükləndi. Ancaq Sokrat fəlsəfi səbəblərdən, yəni əxlaqi prinsiplərə görə demokratiyanın əleyhinə idi. Əksər insanın həqiqətən yaxşı olanın fərqində olmayan bədbəxt ruhlar olduğunu iddia edirdi. Bu səbəblə də səslərini eyni şəkildə həqiqi yaxşı

məsələsində yanılmış olan insanlara verirdilər. Tək bir "yaxşı"-nın olduğuna və bu "yaxşı"-nın öz fəlsəfəsi vasitəsilə tapıla biləcəyinə dair inancı təhlükəli nəticələrə aparan yolu açmışdı. Gördüyümüz kimi, Platon onun bu düşüncəsini inkişaf etdirmişdi və nəticədə ortaya çıxarmış olduğu ideal cəmiyyət forması kabusun özü idi. Platon kimi (və Sokrat da) sovet və nasist ideologiyası da yalnız bir həqiqi səadətin olduğundan əmin idilər. Bu elə bir səadətdir ki, ona yalnız onların fəlsəfi dünyagörüşü sayəsində çatmaq mümkündür.

Qəribədir ki, Otuz tirandan biri Sokratın keçmiş tələbələrindən olan Kritiasdır. Ancaq Kritias gördüyü işlərlə gəncliyindəki yanılmalarını, yəni təhsilini çoxdan geridə qoyduğunu hər kəsə hiss etdirirdi. Əlbəttə ki, Sokratı unutduğu üçün deyil. Əksinə, Afina küçələrində fəlsəfə ilə məşğul olmağı qadağan edən qərarı xüsusilə Sokratı düşünərək verilmişdi, çünki Sokratın sözlərlə oynayaraq vəziyyəti öz lehinə çevirmək məsələsində nə dərəcədə peşəkar şəxsiyyət olduğunu çox yaxşı bilirdi. Kritias bu cür oyunlarla məşğul olacaq vəziyyətdə deyildi. Bu səbəblə də Sokratın məşğuliyyətini adına fəlsəfə deyilsin, ya da deyilməsin qəti şəkildə qadağan etmişdi.

Bəziləri Sokratın Afinada qalmaq qərarını onun zülmkarların hakimiyyəti ilə razılaşdığı formada şərh etdilər. Ancaq daha sonra faktiki vətəndaş müharibəsi əsnasına Sokrat siyasətə qarışmaqla bağlı məsələdə heç bir istək duymadığını göstərdi. O, prinsiplərin insani olmağında israr edirdi.

E. ə. V əsrdəki Afinada bu günümüzdən fərqli olaraq siyasətdən uzaq durmaq demək olar ki, mümkünsüz idi (belə bir şey üçün ya qadın, ya da kölə olmaq lazım idi). Tiranlar qəddarlıqlarının çox yaxşı fərqində idilər və günahlarını yaymaq üçün mümkün qədər daha çox insanı terror hakimiyyətinə cəlb etməyə can atırdılar.

Sokrat şəhərdə o dərəcədə tanınmış bir sima və ad idi ki, tiranların onu qurban seçməməyi mümkün deyildi. Bir gün onu və digər dörd Afinalını hüzurlarına dəvət etdilər. Onlardan tiranların verdiyi tapşırığı yerinə yetirmələri istənilirdi. Demokratik partiyanın keçmiş üzvlərindən olan Leon adlı bir nəfər Salamin adasında yaşayırdı. Onu həbs edərək Afinaya gətirmələri əmr edilir. Bu cür həbs qanuna uyğun deyildi. Leon çox güman ki, Afinaya gətiriləndə öldürüləcəkdi. Ancaq Sokrat hərəkətinin gətirəcəyi nəticələri düşünmədən bu qanunsuz əmri yox hesab edərək evinə yollandı. Bir sıra gözlənilməz hadisələr baş verməsəydi, bu hərəkəti çox böyük ehtimalla ölümünə səbəb olacaqdı. Kritias öldürülür, qısa müddət sonra Tiranlar hökuməti devrilir. Daha sonra rəhbərliyə demokratlar keçir, amma onlar da Sokratı təqib etməyə başlayırlar. Lakin vətəndaş müharibəsinin yaralarını sağaltmaq üçün ümumi əfv elan edilir və Sokrat bir müddətlik xilas olmuş kimi görünür. Sonra e.ə 399-cu ildə dövlətin tanrılarının yox hesab etmək və gənclərin yolunu azdırmaq ittihamı ilə məhkəməyə verilir. İttihamın arxasında siyasi sahədə nüfuza malik olan demokrat Anitos dayanırdı. Anitosun illərdən bəri Sokratla haqq hesabı var idi. Oğlu bir vaxtlar Sokratın tələbəsi idi və o, gənci ənənəvi ailə işini davam etdirməkdənsə "fəlsəfi bir həyat" sürməyin daha yaxşı olacağına razı salmışdı.

Sokrata yönəldilən ittihamlar bariz saxtakarlıq idi, ancaq onlar ölüm hökmü daşıyırdı.  Sokrat prinsipial olaraq aktual işlərlə məşğul olmayan hər ziyalı kimi sevilməyən biri idi. Amma bunun üçün ölümə layiq idimi?  Üstəlik yetmiş yaşlı bir adam olaraq... İttihamlar və onu təqib edən hadisələr böyük ehtimalla heç vaxt həll olunmayacaq tapmacadır. Sirr yox, məhz tapmaca deyirəm, çünki Afinada hər kəs əsl həqiqəti bilirdi.

Sokrat haqqında ali məhkəmə qarşısında mühakimə təşkil

olunur. Məhkəmə heyətini püşkatma ilə seçilən 500 hakimdən təşkil olunmuşdu (bunlar 600 bitərəf adam arasından seçilmişdi). İttihamçıların vəkili əslində Anitosun əlaltısında başqa bir şey olmayan Meletos idi. Meletos öz sahəsində yaxşı tragediya yazarı idi – uzun saçlı, seyrək saqqallı və qarğa burunlu idi. Pessimist, məsxərəçi və iynələyici bir adam olduğu təxmin edilir. Bu cəhətləri ilə hazırcavab Sokrat üçün uyğun bir rəqib idi.  Meletos iddianaməni oxuyur və ölüm hökmü tələb edir.

Artıq növbə müttəhimin müdafiəsindədir. Görünən odur ki, Sokrat vəziyyətin ciddiyyətini hələ anlamamışdı, çünki məhkəmə heyətinə dərs verdiyi ritorika siniflərindən biri kimi davranmışdı. Bəzi heyət üzvləri bunu gülməli hesab etmiş, amma çoxunun bundan xoşu gəlməmişdi.  Günahkar olub-olmadığını müəyyən edəcək birinci səsvermədə 220-yə qarşı 280 nəfərin səsi ilə ölüm cəzası yönündə fikir bildirildi.

Növbə təkrar Sokrata gəldi və özünə uyğun bir cəza seçilməsi istənilərək qulaqlar ona yönəldi. Ancaq Sokrat mühakiməni ciddiyə almamaq məsələsində hələ də israr edirdi. Özünə istiqamətlənmiş ittihamlar gülünc idi və Sokrat da bunu bilirdi. Şəhər dövlətinə etdiyi xidmətlər üçün cəzalandırılmalı deyil, əksinə təqdir edilməsinin lazım olduğunu deyirdi. Ölüm cəzası əvəzinə, Afinalı qəhrəmanların pul ödəmədən yemək yeyə bildikləri Pritaneyondaki[9] müqəddəs zalda özünə daimi bir yer ayrılmağını istəyirdi. Məhkəmə zalında səs-küy qalxır. Yüksəlməkdə olan bu etiraz bağırtılarını nəzərə alan Sokrat fikrindən əl çəkərək, sahib olduğu pulun ancaq bir mine[10] olduğunu (o vaxt bu pulla ancaq bir bardaq şərab

9 *Pritaneyon* – Qədim Yunanıstanda şəhərlərin mərkəzində yerləşən inzibati bina. Şəhərin idarə edici şəxsləri, Olimpiya qalibləri və təşkilatçılarının görüşdüyü yer.

10 *Mine* - Antik Yunanıstanda gümüş pul.

almaq mümkün idi) deyərək özünə bu sərvəti ilə düz mütənasib pul cəzası verilməsini tələb edir. Zalda yenidən bağrışmalar yüksəlməyə başlayır. Bu arada dostları Sokrata ağılla düşünməsi üçün yalvarırlar. O da bir qədər fasilədən sonra 30 mineni uyğun cəza olaraq dəyərləndirdiyinini qeyd edir.

Baş verən hadisə məhkəmə heyətini daha da hiddətləndirir. Bu dəfəki səsvermədə 140-a qarşı 360 səslə Sokrat ölümə məhkum edilir. Sokratın baş verənlərə qarşı münasibətinin arxa fonunda inadkarlıqdan (dikbaşlıqdan) daha artığı var idi. Ciddi şəkildə hakimlərin "dəyərini anlayıb" onu sərbəst buraxacaqlarınımı düşünürdü? Yoxsa, ölmək qərarınımı vermişdi? (Sürgün edilməyi təklif etmiş olsaydı, məhkəmə bunu dərhal qəbul edərdi və dostları da ona sürgündə uyğun şəkildə dəstək olardılar.) Belə görünür ki, Sokrat özü belə tam olaraq fərqində olmadan qəhrəmanca bir ölüm arzulayırdı.

Məhkəmə Sokratı həbs etməli və qərarı dərhal icra etməli idi. Ancaq mühakimənin aparıldığı gündən bir gün əvvəl müqəddəs gəmi hər il olduğu kimi Afinanın 150 km uzağındakı Egey dənizində yerləşən Delos adasına getmək üçün yola düşmüşdü. Adətlərə uyğun olaraq gəminin dönüşünə qədər edam cəzaları icra oluna bilməzdi. Bu səbəblə də Sokrat zəncirə vurularaq şəhərin zindanına atıldı. Bu zindanın qalıntılarını Aqoranın 100 metrə qədər cənub qərbində bu gün də görmək mümkündür. Kələ-kötür bir ərazidə təməllərin və qədim daşların arasındadır. Sokratın olduğu hücrənin və zindanın hamamı girişdə sağdadır. Son günlərini burda gəlib gedən dostları ilə birgə keçirmişdi. Bu səfil yerdə (6x6 addımlıq) Homerin əsərləri və tragediyalara bərabər tutula biləcək antik ədəbiyyatın şah əsərlər hesab olunan Platonun Dialoqlarına mövzu olacaq söhbətlər baş vermişdi.

Bu dialoqların qəhrəmanı özünə son ana qədər sadiq qalmışdı. Bütünlüklə humanist, müdrik və heyranlıq oyandıran, eynilə olmaq istədiyi kimi. Bir dəfə dostu Kriton onu qaçmaq məsələsinə razı salmağa çalışır. O, bunun üçün mühafizəçilərə rüşvət verdiyini də deyir. Ancaq Sokrat dostunun sözlərinə qulaq asmır. Belə bir davranışın müdafiə etdiyi prinsiplərə uyğun olmadığını qeyd edir. Sokrat yanılmış olsalar belə qanunların üstünlüyünə qəti şəkildə bağlı bir insan idi.

Nəhayət müqəddəs gəminin Sunion burnunda görünməsi ilə bağlı xəbər gəldi. Yaxın zamanda limana yanaşacaqdı. Sokratın dostları və xanımı Ksantippa onun hücrəsində bir yerə toplaşdılar. Sokrat xanımını evə göndərir, çünki belə anlarda həddindən artıq emosional davranışlar əsəblərini pozurdu. Ksantippa gedərkən üsyan edir: "Axı sən günahsızsan" Sokratın verdiyi cavab isə məhz onun kimi bir insanın verəcəyi cavab idi: "Qadın, günahkar olmağımımı istəyərdin?"

Sokrat dostları ilə (müridləri desək, daha doğru olar) ölüm və ölümsüzlük haqqında söhbətə başlayır. Platon bizə bu söhbəti dərindən, təsirli və xırdalığına qədər detallı bir şəkildə izah edir (üstəlik də özü o anlarda orda olmamağına baxmayaraq, çünki Platon o "günlərin günü"ndə qızdırma içində xəstə yatağında yatmaqdaydı). Nəhayət cəzanın icrası vaxtı gəlib çatır və Sokrata zəhər qabı uzadılır (Afinada o dövrdə cəzalar bir növ "do it youself" (özün et) şəklində həyata keçirilirdi). Ölümünə qədər özünə sadiq qalaraq Sokrat təkrar biliksiz adam rolunu oynayır və mühafizəçidən soruşur: "Deyin mənə, ey hörmətli insan, bunun ən yaxşı yolu hansıdır?"

"İçdikdən sonra"-, deyir mühafizəçi, "ayaqların ağırlaşana qədər gəz, sonra da yatağa uzan. Zəhər öz təsirini göstərəcək".

-“Yaxşı, bəs bu içkinin bir qisminin tanrılara qurban edə bilərəmmi?”

-“Ey Sokrat, biz ancaq yetərli olacağını düşündüyümüz qədər hazırlayırıq”. (Platon, “Fedon” 117v)

Sokrat qabı bir dəfəyə başına çəkir. Dostları özlərinə daha artıq əngəl olmadan fəryad etməyə başlayırlar. Sokrat isə onlara xəbərdarlıq edir: “Nə olub sizə belə? Belə xoş olmayan səhnələrə əngəl olmaq üçün qadınları hücrədən göndərdim. Eşitmişəm ki, birisi ölərkən səssiz olmaq lazımdır. Dolayısı ilə sakit qalın və mətin olun”.

Daha sonra Sokrat yatağa uzanır və bədəni ayaqlarından başlayaraq hissizləşməyə başlayır. “Ey Kriton, Asklepiyə[11] bir xoruz borcluyuq”-, deyir. Bu onun son sözləridir.

Beləliklə, “Afinanın at milçəyi” ölür.

Platonun təqdimatında Sokratın son sözləri kifayət qədər doğru səslənir. Lakin bu sözlər məna baxımından dəqiq deyil, çünki nə demək istədikləri tam aydın deyil. Biz bütünlüklə əmin ola bilərik ki, həqiqət ədəbiyyat üzərində qələbə çalıb (Hətta Platon öz dostlarından eşitdiklərinə əsaslansa belə). Aydındır ki, Sokratın son sözlərinin çoxsaylı şərhləri var. Çox güman ki, Sokrat sadəcə Asklepi adlı dostundan xoruz götürüb və öz borcunu qaytarmaq istəyib. Lakin bir çox tədqiqatçılar üçün bu şərh ifrat dərəcədə sadə görünür. Çox yayılmış ad olmaqla bərabər, Asklepi – həm də həkimlik və şəfavermə Tanrısıdır (Adətən, onu ilan dolanmış əsa

11 *Asklepi* – Qədim Yunan mifologiyasında təbabət tanrısı. Adının mənası “kəsib yaran” deməkdir. Adi insan kimi dünyaya gəlmiş, daha sonra yüksək tibbi biliklərinə görə tanrılığa yüksəldilmişdi. Qədim Yunanıstanda çox vaxt onun şərəfinə xoruz qurban edilirdi.

ilə gəzən halda təsvir edirlər: bu ilan kimi müdrik olan tibb embleminin mənbəyidir, hansı ki hələ də əczaxanaları və təcili yardım məntəqələrini bəzəyir). Bəzi insanlar güman edirlər ki, son sözlərində Sokrat guya öz həkiminə pul ödənilməsini xahiş edib. Lakin daha yumşaldılmış metafizik izah da var. Sokratın son sözləri daha nə məna verə bilər? “Kriton, biz Asklepiyə bir xoruz qurban verməliyik. Nəzarət et və unutma”. Hesab edilirdi ki, can bu dünyadan o biri dünyaya köçərkən, Asklepi canı azardan müalicə edə bilirdi. Ona görə də, mümkün idi ki, Sokratın xoruzu qurban vermək arzusu onun ruhunun yaxşı dünyaya təhlükəsiz keçməyi ümidi ilə bağlı idi. Bu tamamilə onun ruhun ölümsüzlüyünə inanmağı mənasında qəbul edilə bilər. Belə ki, su baldırğanı olan badəni içməzdən əvvəl Sokrat ora toplaşan dostlarına başa salırdı: “Yalnız pis bir həyat keçirənlər ümid edirlər ki, ölüm onlar üçün hər şeyin sonudur. Bu, onlar üçün tamamilə əlverişlidir, çünki belə olmaq onların maraqlarına uyğundur. Ancaq inanıram ki, pislərin ruhu Tartariyanın aşağı aləmini tək-tənha şəkildə dolaşır. Gerçək dünyaya yalnız yaxşı həyat sürənlər qəbul ediləcək (Platon, “Fedon”, 114v, s). Bu nöqtədə Sokrat bəzi tərəddüdlərinin olmağını etiraf edəcək qədər insan idi (və sadəcə filosof idi). Baldırğan zəhəri içməzdən əvvəl o, dostlarına belə deyir: “Bizim yollarımız ayrılır, mənə - ölmək üçün, sizə isə yaşamaq üçün, hansının daha yaxşı olması isə təkcə Tanrıya məlumdur” (Platon, “Sokratın Apollogiyası”).

Sadəcə bir neçə gün sonra Afinalılar etdikləri şeyin qorxuncluğunun fərqinə varırlar. Şəhərdə rəsmi yas elan edilir, məktəblər, gimnaziumlar və teatrlar bağlanır. Meletos edama məhkum edilir. Anitos isə sürgün edilir. Daha sonralar Sokratın Lisipp[12] tərəfindən hazırlanmış tunc büstü işsiz gücsüz adamların öz alicənab qəhrə-

12 Lisipp – e.ə IV əsrdə yaşamış yunan heykəltaraş.

manının altına toplaşmaları üçün Pompeiondakı[13] müqəddəs yola yerləşdirilir.

Bütün bunlar tərifə layiqdir. Görünür, Afinalılar bununla fəxr edirlər. Ancaq mənə elə gəlir ki, Sokrat sadəcə siyasi oyunun piyadası idi. Hər şeyə rəğmən ümumi oyunda zəfər yenə də Sokratın olmuşdu. Əks halda bu gün onunla maraqlanmazdıq.

---

13 Pompeion – Afinada ictimai əhəmiyyətli mərasim binası idi. Festivallar zamanı Afinalı zadəganların qurban əti yeyəcəkləri sütunlarla və ziyafət otaqları ilə əhatələnmiş böyük həyətdən ibarət idi.

# Son söz

## Ələkeçməz Sokrat

Sokrat barədə biz iki əsas mənbədən məlumat əldə edirik – Platonun və Ksenofontun yazıları. Onların hər ikisi Sokratın tələbəsi idi. Platon, sonradan filosof oldu, o, öz fəlsəfi fikirlərini personaj kimi daha çox Sokratın çıxış etdiyi öz parlaq dialoqlarında ifadə edirdi. Ksenofonta gəldikdə isə, o, hərbi karyerası faciə ilə sonlanan hərbiçi oldu. Onun yerinə isə yazmağa yönəldi. Nəticədə ordudan getdi və özünün ən məhşur əsərlərindən biri Sokratın şəxsiyyətini təsvir edən “Xatirələr” əsərini yazdı. Təəssüf ki, bu iki ilkin mənbə Sokrat barədə tamamilə fərqli iki təsvir təqdim edir. Üstəlik bu mənbələrdə verilən təsvirlər də yalnız qismən üst-üstə düşür. Ksenofont öz təbiətinə görə mühafizəkar idi. Onun qoca müəlliminin Afina gənclərini əxlaqsızlaşdırmaqda ittiham edilməyi onu qəzəbləndirmişdi. Sokratın müdafiəsi ilə bağlı etdiyi təsvir özündə çoxsaylı lətifə elementləri daşıyır, lakin burada sözün həqiqi mənasında çox az fəlsəfi təsvir var. Bunu oxuyarkən, bəzən qeyri-ixtiyari fikirləşirsən ki, çətin ki, Sokrat filosof olsun. Baş personajın Sokrat olduğu Ksenofontun dialoqlarının birində (“Oeconomicus”) nə qədər qəribə olsa da o, bağbanlıq barədə məsləhətlər verir. Ksenofontun “Xatirələrində” Sokratın ideyaları o qədər darıxdırıcı və bayağıdır ki, onun ətrafında bu qarışıqlığın haradan yarandığını başa düşmək çətin olur. Əlbəttə, bu cür adamı nəinki inqilabi ideyaların təbliğinə görə təqib etməzdilər, hətta onu böyük filosof belə hesab

etmək olmazdı. Ola bilsin ki, Ksenofont Sokratın ideyalarını başa düşmək üçün çox dar düşüncəli idi, lakin o, Sokratın həqiqi olmayan, uydurma obrazını yarada bilməyəcək qədər də zəif təxəyyülə malik olduğu təəsüratını yaradır. Məhz bu səbəbə görə bir çoxları məhz onun təsvir etdiyi Sokratın obrazını qəbul etməyə meyillidilər. Bertran Rassel qəti olaraq bu cür münasibətə qarşı çıxır: "Axmaq adamın ağıllı adamın dedikləri barədə hekayəsi heç zaman doğru olmaz, çünki o, fərqində olmadan eşitdiklərini özünün anlaya biləcəyi şeylərə çevirir". Əksinə, Sokratın Platon tərəfindən şərhinə gəldikdə isə, çox güman ki, yarı-yarıya ağıllı idi.

Platonun dialoqlarında üzə çıxan Sokrat təsviri ustalıqla tərtib olunmuş ədəbi portretdir. Bizim qarşımızda mükəmməl obraz var və bu da bizi obrazın orijinal insanın ciddi şəkildə "düzəldilmiş" (yaxşılaşdırma) versiyası olması ilə bağlı şübhəyə salır. (bu mənəvi niyyətdən daha çox bədii cəhətdən "düzəldilmədir", Platonun Sokratı müqəddəs deyil).

Bütün bunlara baxmayaraq Sokratın əslində nə dediyini, Platonun ondan nə demək istədiyindən fərqləndirmək çətindir. Biz Platonun öz fəlsəfəsinin çox hissəsini Sokratın ağzı ilə qeyd etdiyini bilirik. Lakin nə qədərini?

Mənim yaratmağa cəhd etdiyim Sokrat təsviri bu mənbələrin hər ikisindən götürülüb. Üst-üstə düşüdükləri yerlərdə bəzən insanın gözü qarşısına haqqlılığı heç zaman şübhə doğurmayan, ancaq qeyri-müəyyən xarakterli biri gəlir. Mən bu ələkeçməz insanı tutmağa çalışmışam. Hər kəs Sokratın həm öz mübahisələrində, həm də şəxsiyyətində müəyyən dərəcədə öz təxminedilməzliyi və ələkeçməzliyi ilə fəxr etməyində həmfikirdir. Ola bilsin ki, o hələ də bizi axmaq yerinə qoymağa davam edir.

**Sokratın mirası**

Bu miras birmənalı olaraq qiymətləndirilə bilinməz (şübhəsiz ki, o özü də bunu istəyərdi). Onun Platon üzərindəki təsirləri çox dərindir və fəlsəfəyə bu günə qədər nüfuz etməyə davam edir. Bu qədim Yunan mirası sarımsaqla müqayisə oluna bilər. Sarımsaq bir boşqaba girəndə ondan yaxa qurtara bilməzsiniz. Bu fəlsəfi dadı və qədim yunan ləzzəti nə olur-olsun, özünü təkrar etməyə davam edir.

Sokratın dialektika metodu həll edici oldu. Bu danışıq metodu şübhəsiz Platonun böyük dialoqlarının ədəbi formasını diktə etmişdi. Amma onun fəlsəfə üzərindəki təsirini böyütmək çətindir. Sokratın bir mövzunu təhlil etmə metodu fəlsəfədə ağlın, sadəcə ağlın özü üçün ilk əhəmiyyətli istifadəsi idi. O, həmsöhbətindən müzakirə olunan mövzunun tərifini verməyini istəyərək başlayacaqdı – hansı ki, ədalətin təbiətindən general olmaq metoduna qədər hər hansı bir şey ola bilərdi. İstər görkəmli, istərsə də gülünc olmasına baxmayaraq mövzuya yanaşma həmişə eyni idi. Bu dialektikanın ən böyük yeniliyi idi. Belə ki, hər şeyə tətbiq oluna biləcək vasitə idi. Bir nəsnənin tərifini əldə etdikdən sonra Sokrat mövzudakı boşluqları seçməyə davam edəcək və bu müddətdə daha yaxşı bir tərif əldə edəcəkdi. Bu yolla o, müəyyən xüsusi nümunələrdən daha ümumi tətbiqlərə sahib olan anlayışlara doğru irəliləyərək, nəhayət ümumi həqiqətə çatır. Bu cür həqiqətlər və Sokratın onlara çatma yolu bir əsr sonra Platonun tələbəsi Aristotel tərəfindən qurulan məntiqin xəbərçisi oldu. Aristotel ideyalar nəzəriyyəsini qəbul etmişdi. Amma onu dünya haqqındakı öz fikirlərinə (ehtiyaclarına) uyğun şəkildə dəyişdirmişdi. Sokrat və Platon tərəfindən yaradılan fəlsəfənin istiqamətini tərsinə çevirərək fəlsəfənin gerçəkliyə olan marağını yenidən oyandıran Aristotel idi. Aristotel

kosmologiyadan konxiologiyaya, elmdən günaha qədər hər şeyi fəlsəfəyə daxil etməyə çalışmışdı. Ancaq nəticədə onun əsas uğuru insan biliklərinin sərhədlərini müəyyənləşdirməyi oldu. Yenə də nəzəriyyə, praktiki məqsədlər üçün istifadə edilə bilən sağlam biliklərdən daha önəmli idi. Məhz bu səbəbdən fəlsəfə Romalıların Yunanıstanı fəth etdiklərindən sonra tənəzzülə uğradı. O, Romalılar üçün  istifadəyə yararsız, dolayısı ilə faydasız idi.

Roma imperiyasının süqutunu "Qaranlıq çağlar" və Orta əsrlərdə dinin hökmran olduğu sivilizasiya izlədi. Fəlsəfə hələ də durğun (can çəkişməkdə) idi: dini ortadoksluq içərisində hermetik olaraq möhürlənmiş mücərrəd bir boşluq. Dünyanın indiyə qədər gördüyü ən mürəkkəb, hər şeyi əhatə edən və dərin bir teologiyanı meydana gətirən zehni enerji, texnoloji cəhətdən qoşqudan bir azını ixtira etmək qabiliyyətində idi (mexanizmi artıq III əsrdə e. ə. Arximed tərəfindən öncədən nəzərdə tutulmuş olan). Qotik katedrallar açıq kanalizasiyaların olduğu küçələrdəki daxmaların arasında ucalırdı və vəba batil inanclarla müalicə edilirdi.

Bunun günahı Sokratda deyildi, ancaq onun fəlsəfəsi bizim düşüncəmizin dönüşündə önəmli rol oynamışdı. İnsan öyrənməyi Sokrata ölçüyəgəlməz dərəcədə borcludur. O, bizə ağlımızı necə istifadə edəcəyimizi öyrətdi. Ancaq ondan harda istifadə edəcəyimiz haqqında baxışımızı da sərhədlədi. Nəticədə insan öyrənmək üçün böyük bir kor nöqtədən əziyyət çəkməli idi. Bu fəlsəfənin başlanğıcından bu günə qədər keçən dövrün ¾ dən az olmadı.

Bu qara nöqtəyə bir nümunə olaraq XIV əsrdə Avropada əhalisinin yarısından çoxunu yox edən vəbaya – qara ölümə qarşı orta əsr münasibətini göstərmək olar. Qara ölümün ən başdan yoluxucu olduğu bilinirdi (Xəstəlik Qərbə vəbalı cəsədlərin Qara dənizdəki ticarət məntəqəsinə mancanaqla atılmağından sonra gəlmişdi).

Yenə də bu praktiki bilik mənəvi tədbirlərin lehinə göz ardı edilmişdi. Niyə? Çünki Sokrat dialektikasının varisi olan məntiq ümumiyyətlə praktik suallara deyil, mücərrəd fikirlərə tətbiq olunurdu. Gördüyümüz kimi, bu kor nöqtə Sokratda ayırd edilə bilər. Ancaq o, bunun daha sonrakı nəticələrinin böyüklüyünə, yəni insan tərəqqisinin faktiki dayandırılmağına görə məsuliyyət daşımır. Böyük filosof olsaq da, hamımız səhv edirik. Sadəcə bu səhvlərin təxminən iki min il ərzində əbədiləşdiriləcəyini gözləmirik.

## Sokrata aid edilən bəzi müşahidələr

Sokrat heç nə yazmadığı üçün bunu niyə etdiyini izah edən sitatla başlamaq ədalətli görünər:

*Nə yaza biləcəyimi bilmirəm.*

O, izah etməyə davam edir:

Bir zamanlar Misirdə Tot adlı yaşlı bir tanrı var imiş. Sayları, hesablama işlərini, geometriya, astronomiyanı, ayrıca taxta üstündə oynanılan oyunlarını və nəhayət yazını icad etmişdi. Tot o dövrün Yuxarı Misir kralı olan Tamusun yanına gedərək yeni icadlarını təqdim edir. Kral isə özünə bunların nə kimi yararı olduğunu soruşur. Yazının yararları haqqında Tot bunu deyir: *"Yazı sənəti, əlahəzrət, Misirliləri daha müdrik edəcək və yaddaşlarını qüvvətləndirəcək".* Kral isə belə cavab verir: "Ey sənət zəngini Tot, kəşfinə duyduğun sevgidən dolayı, bu sənətin təsirinin tam əksini söylədin, çünki bu öyrənənləri öz yaddaşlardan istifadə etməyəcək vəziyyətə gətirəcəkdi. Yazıya güvənərək, şeyləri onları əldə etdikləri üçün deyil, onları bir sıra işarələr vasitəsilə xatırlayacaqlar".

Platon, Phaidros, 274c-275a

Sokrat mamaça olan anasından bəhs etdikdən sonra, öz fəlsəfi metodunu anasının işinə bənzədərək izah edir:

*Mənim mamaçalıq sənətim bir çox nüansda onunkuyla eynidir: mənimkini onunkundan fərqləndirən qadınlara deyil kişilərə doğum yardımı etməyimdir və doğumda bədənlərə deyil ruhlara kömək etməyimdir... və digər cəhətlərdən də mamaçalara oxşayıram: Müdrikliyi mən yaratmıram. Çünki tanrı (Apollon) doğuma kömək etməyimizi istədiyi qədər, dölləmə qabiliyyətimə sahib olmağı da əngəllədi.*

Platon, Teitet, 149a, 150c

***Bir neçə zarafat və lətifə:***

*Sorğulanmamış həyat yaşamağa dəyər deyil.*

Platon, Sokratın Apologiyası, 38a

*Əziz Aqaton, qarşı çıxa bilməyəcəyin həqiqətdir. Sən asanlıqla Sokrata qarşı çıxa bilərsən.*

Platon, Simpozium, 201d

İnsanları simalarından tanımağı bacaran biri Afinadan keçir. Sokratla qarşılaşan zaman dərhal üzünə qarşı onun bir bədheybət olduğunu və hər cür əxlaqsız və şeytani arzunu öz içərisində daşıdığını qeyd edir. Və Sokrat sadəcə olaraq belə cavab verir: “siz məni tanıyırsınız”

Fridrix Nitsşe, Bütlərin alacaqaranlığı, Sokrat problemi

***Sokrat işdə***

Bir daha  Aristipp Sokratdan gözəl bir şey bilib-bilmədiyini soruşdu. Sokrat isə cavab verdi: “Çox şey”.

“Hamısı bir birinə bənzəyirmi?” - soruşdu Aristipp.

-“Bəziləri mümkün olduğu qədər bir birinə bənzəmir”

-“Amma gözəl olan digər gözəl olandan necə fərqli ola bilər?”

Sokrat bu cür cavab verir: “çünki güləş üçün gözəl şəkildə formalaşdırılmış bir adam, qaçmaq üçün formalaşdırılmış digərindən çox böyük ehtimal fərqli olacaqdı. Və müdafiə üçün gözəl şəkildə hazırlanmış qalxan, aqressiv və sürətli şəkildə atılması üçün xüsusi formalaşdırılmış nizədən mümkün olduğu qədər fərqlidir.

Ksenefont, Sokratın xatirələri, VIII, 4

Biri Sokratdan evlənməyinə ehtiyac olub-olmadığını soruşur. Aldığı cavab isə belədir: “Ürəyin nəyi istəyirsə onu elə, çünki nə etsən də, sonda etdiyinə peşman olacaqsan”

(Diogen Laertius, Məşhur filosofların həyatları və təlimləri, cild 2, 33)

Sokrat məhkəmədə məşhur olamağının səbəbini izah edir və Apollon adından danışan Delfi kahinlərinin bir dəfə onu bütün insanlar arasındakı ən müdrik elan etdiyini xatırlayır:

Bunu eşidəndə öz-özümdən soruşdum: Tanrı bununla nə

deməl istəyir? Sözü hara gətirmək istəyir? Çox yaxşı bilirəm ki, nə çox müdrik, nə də çox axmağam. Yaxşı bəs elədirsə, ən müdrik olduğum iddiasının altında yatan gerçək nədir? Çünki, o yalan deməz, əlbəttə: bunu edə bilməz. Uzun müddət nəyi nəzərdə tutduğunu anlaya bilmədim: ən nəhayətində məsələni bu şəkildə araşdırmağa qərar verdim. Kahinlərin öncəgörmələrinin yanlış olduğunu isbatlamaq və “bu adam məndən daha müdrikdir, amma sən əksini iddia edirsən” deyə bilmək üçün müdrikliyi ilə ad çıxarmış adamları bir-bir qarşıma aldım. Adamı araşdırmağa başladığımda, adını çəkməyə ehtiyac duymuram, siyasətçilərimizdən biri idi, belə düşündüm, ey Afinalılar: Onunla danışarkən bu adamın başqa bir çox adama müdrik göründüyünü və xüsusilə də öz müdrikliyinə inandığını, amma həqiqətdə müdrik biri olmadığını kəşf etdim. Beləliklə, ona həqiqətdə müdrik bir adam olmadığını göstərməyə çalışdım. Özünün və bu hadisəyə şahid olan bir çox insanın bundan xoşu gəlmədi.

Gedərkən bu insandan həqiqətən də daha müdrik olduğuma qərar verdim. Hər ikimiz də çox parlaq olmaya bilərik, amma özü belə olduğunu düşünərkən, özüm belə olmadığım qənaətinə gəldim. Bu adamdan bir az da olsa müdrik olduğum görünür: Bilmədiyim şeyləri bildiyimi düşünmürəm çünki. Ardınca birincisindən daha müdrik olduğu deyilən birinin yanına getdim və yenə eyni şeyləri yaşadım. Bu səbəbdən də onu və bir çoxunu özümə düşmən etdim.

Platon, Apologiya, 21b-3

Sokrat ölüm gününün səhəri hücrəsinə toplanmış dostları ilə ruh, həqiqət və ölümsüz müdriklik haqqında danışır:

Bizi hədəfə doğru aparan bir çığır vardır (ölüm). Bir bədənə sahib olduğumuz və ruhumuz bu başımıza bəla olanla məşğul olduğu müddətcə heç vaxt istəklərimizə çata bilməyəcəyik. Və xatırlayırsınızsa, bu məsələdə həmfikir idik, həqiqi olan budur. Bədən bizləri fasiləsiz olaraq hərəkətə sövq edir, çünki qidalanmalıdır və bir sıra xəstəliklərə tutulduğu zaman həqiqəti tapmağa yönəlmiş axtarışlarımıza mane olur. Şəhvətlə və şiddətli arzularla, qorxu və bir çox əsəbi düşüncələrlə və də uşaqlarla bizi doldurur. Belə ki, bizim də daha əvvəl müəyyən etmiş olduğumuz kimi bir şeyi həqiqi mənada heç bir zaman anlaya bilməməyimizin günahı həqiqətdə ona aiddir. Onsuz da müharibəni, vətəndaş müharibəsini və davaları da bədənə və onun arzularına borcluyuq. Çünki bütün toqquşmalar pul, mal-mülk üçün edilir.

Bədənimiz bizi pul qazanmağa məcbur edir, çünki ona bir kölə kimi xidmət etmək məcburiyyətindəyik. Bu səbəblə də fəlsəfəyə vaxtımız qalmır. Amma ən pisi, bədən bizi bir anlıq da olsa rahat buraxdığında və biz bir şeylər araşdırmağa istiqamətləndiyimizdə onun bizlərin diqqətini dağıtmağı, rahatlığımızı qaçırmağı, ağlımızı qarışdırmağı və həqiqəti qavramağımıza mane olmağıdır. Beləliklə, bu nəticəyə gəlirik. Bir şeyi bircə dəfə belə olsa həqiqətən aydın şəkildə anlamaq istəyiriksə, bədənimizdən ayrılmalı və şeylərin mahiyyətinə ruhumuzla baxmalıyıq. Ancaq ölümümüzdən sonra həsrətini çəkdiyimiz və sevdiyimizi iddia etdiyimiz şeylərə, yəni müdrikliyə çata biləcəyimizi beləcə öyrəndik. Çünki əgər bir bədənə sahib olduğumuz müddətcə heç bir şeyi sadə şəkildə anlaya bilməyəcəyimiz doğrudursa, bizlərə ancaq iki seçim qalır: ya müdrikliyə heç vaxt çata bilməyəcəyik, ya da ancaq ölümdən sonra. Çünki o andan etibarən ruh özü ilə baş-başa, bədəndən ayrılmış olacaq, daha əvvəl yox. Belə görünür ki, yaşadığımız müddətdə, müdrikliyə ən yaxın ola biləcəyimiz an bədənimizlə, çox gərəkli

vəziyyətlərdən başqa, maraqlanmadığımız, maddi həzzlər və onun görüntüsü tərəfindən istiqamətləndirilmədiyimiz, tanrının özü bizləri onlardan ayırana qədər ondan uzaq durduğumuz anlardır. Beləliklə, bədənin zəifliklərindən qurtulmuş və təmizlənmiş bir ruh olaraq çox güman ki, eyni növdən insanlarla birlikdə olacağıq və öz mənliyimiz vasitəsilə hər şeyi olduğu kimi görəcəyik. Məhz həqiqət olan da hərhalda bundan başqa bir şey deyil.

Platon, Fedon, 66b-67a

*"Bizim yollarımız ayrılır, mənə - ölmək üçün, sizə isə yaşamaq üçün, hansının daha yaxşı olduğu isə təkcə Tanrıya məlumdur".*

Platon, Sokratın Apollogiyası, 42a

## Əhəmiyyətli fəlsəfi hadisələrin xronologiyası

E.ə. VI əsr – Miletli Fales ilə Qərb fəlsəfəsinin başlanması.

E.ə. VI əsrin sonu – Pifaqorun ölümü.

E.ə. 399 – Sokrat Afinada ölümə məhkum edilir.

E.ə. 387 – Platon Afinada ilk universitet olan Akademiyanı qurur.

E.ə. 335 – Aristotel Afinada Akademiyaya rəqib məktəb olan Likeyumu qurur.

324 – Konstantin Roma imperiyasının paytaxtını Bizansa köçürür.

400 – Müqəddəs Avqustin "Etiraflar" əsərini yazır. Fəlsəfə xristian teologiyasına daxil olur.

410 – Vestqotlar tərəfindən Romanın yağmalanması qaranlıq çağların xəbərçisidir.

529 – Afinada Akademiyanın imperator Yustinian tərəfindən bağlanmağı Ellin düşüncəsinin sonuna işarə edir.

XIII əsrin ortaları – Akvinalı Tomas Aristotel haqqında şərhlər yazır. Sxolastisizm dövrü.

1453 – Bizansın türklər tərəfindən ələ keçirilməsi, Bizans imperiyasının süqutu.

1492 – Kolumb Amerikaya çatır. Florensiyada Renessansın və yu-

nan dilini öyrənməyə marağın canlanması.

1543 – Kopernik Yerin Günəş ətrafında fırlandığını riyazi olaraq sübut edən "Göy kürələrinin hərəkətləri haqqında" əsərini nəşr etdirir.

1633 – Qalileo Qaliley kilsə tərəfindən Günəş mərkəzli kainat nəzəriyyəsindən əl çəkməyə məcbur edilir.

1641 – Rene Dekart müasir fəlsəfəsinin başlanğıcı olan "Düşüncələr" əsərini nəşr etdirir.

1677 – Spinozanın ölümü onun "Etika" əsərinin nəşrinə imkan verir.

1687 – İsaak Nyuton cazibə anlayışını təqdim etdiyi "Principia" əsərini nəşr etdirir.

1689 – Con Lokkun "İnsanın anlaması haqqında esse" əsəri nəşr edilir. Empirizmin başlanması.

1710 – Corc Berkli "İnsani biliyin prinsipləri haqqında traktat" əsərini nəşr edilir və empirizmi yeni istiqamətlərdə inkişaf etdirir.

1716 – Leibnitsin ölümü.

1739-1740 – Devid Yum "İnsan təbiəti haqqında traktat" adlı əsərini nəşr etdirir və empirizmi onun məntiqi hüdudlarına aparır.

1781 – Yumun "doqmatik yuxularından" oyanan Kant "Saf ağlın tənqidi" əsərini nəşr etdirir. Alman metafizikasının böyük dövrü başlayır.

1807 – Hegel Alman metafizikasının ən yüksək nöqtəsi olan "Ruhun fenomenologiyası" əsərini nəşr etdirir.

1818 – Şopenhauer “Dünya İradə və İstək kimi” əsərini nəşr etdirir və Alman metafizikasını Hind fəlsəfəsi ilə tanış edir.

1889 – Nitsşe “Tanrı öldü!” deyə elan edir və Turində dəliliyə məğlub olur.

1921 – Lüdviq Vitgenştayn “Məntiqi Fəlsəfi Traktat” əsərini nəşr etdirir və fəlsəfi problemlərə “yekun həll” tapdığını iddia edir.

1920-ci illər – Vyana çevrəsi Məntiqi Pozitivizmi önə sürür.

1927 – Martin Haydeqqer kontinental və analitik fəlsəfə arasındakı ayrılığın carçısı olan “Varlıq və Zaman” əsərini nəşr etdirir.

1943 – Jan-Pol Sartr “Varlıq və Heçlik” əsərini nəşr etdirir, Haydeqqerin düşüncələrini daha da inkişaf etdirir və ekzistensializmi təşviq edir.

1953 – Lüdviq Vitgneştaynın ölümündən sonra “Fəlsəfi tədqiqatlar” əsəri nəşr etdirir. Linqvistik analizin yüksəliş dövrü.

## Sokratın həyatının xronologiyası

E.ə. 469 – Sokrat doğulur.

E.ə. 440-ci ildən əvvəl – Delfi kahinləri Sokratı “insanların ən müdriki” elan edir.

E.ə. 430-cu illər ərəfəsi – Sokrat Pelopones müharibsində hoplit olaraq xidmət edir və Alkibiadesin həyatını xilas edir.

E.ə. 423 – Sokrat Aristofanın komediyalarında parodiya edilir.

E.ə. 420-ci il ərəfələri – Sokrat Ksantippa ilə evlənir. Sonarkı 10 il ərzində 3 oğulları olur.

E.ə. 406-405 – Sokrat qanunverici şuranın üzvü olur (Boule).

E.ə. 404 – “Otuz Tiran” tərəfindən verilən Leonu həbs etmək əmrini yerinə yetirmir.

E.ə. 399 – Sokrat dinsizlik və gəncləri yoldan çıxarmaqla ittiham olunur. Sokrata ölüm cəzasının verilməyi ilə nəticələnən məhkəmə baş tutur. Baldırğan zəhəri içərək ölür.

## Sokratın dövrünün xronologiyası

E.ə. 460-cı illər – İlk tragediya yazarı Esxil öz gücünün zirvəsindədir.

E.ə. 460 – Afina və Sparta arasında Birinci Pelopones müharibəsinin başlaması, tibbin ənənəvi banisi olan Hippokratın Kos adasında anadan olması.

E.ə. 445 – Birinci Pelopones müharibəsinin sona çatması.

E.ə. 440-ci illərin ortaları – Periklin hakimiyyəti altında Afinanın qızıl dövrü başlayır. Bu müddət ərzində Afina mədəniyyəti ən böyük çiçəklənmə dövrünü yaşayır.

E. ə. 447 – Afina Akropolda Parfenonun tikilməyə başlayır.

E.ə. 441-440 – Samos adasında üsyan Egey dənizindəki sülhü pozur.

E.ə. 431 – Afina və Sparta arasında İkinci Pelopones (Böyük) müharibəsi başlayır.

E.ə. 429 – Periklin ölümü.

E.ə. 428 – İlk Afinalı filosof, Sokrat və Periklin müəllimi olan Anaksaqorun ölümü.

E.ə. 415 – Afina fəlakətlə başa çatan Siciliyanı ələ keçirmək üçün nəhəng ekspedisiya təşkil edir.

E.ə. 404 – İkinci Pelopones müharibəsi Afinanın alçaldıcı məğlubiyyəti ilə başa çatır. “Otuz tiran” Afinada hakimiyyəti ələ keçirir.

E.ə. 403 – “Otuz tiran devrilir” və demokratlar hakmiyyətə gəlir.

E.ə. 400 – Qanun islahatı və ümumi əfv elan olunur (bir il sonra Sokrata tətbiq olunmur).

## Tövsiyyə olunan ədəbiyyat

Hugh H. Benson, Essays on the Philosophy of Socrates (Oxford University Press, 1992)

Thomas C. Brickhouse and Nicholas D. Smith, Plato's Socrates (Oxford University Press, 1993)

Scott Buchanan, ed., The Portable Plato (Viking, 1977)

William K. Guthrie, Socrates (Cambridge University Press, 1977)

Paul A. Vander Waerdt, ed., The Socratic Movement (Cornell University Press, 1994)

# POL STRATERN
## 90 DƏQİQƏDƏ SOKRAT

Sokrat bütün insanların xoşbəxtlik üçün cəhd göstərdikləri məlumatını vermişdi. Xoşbəxtliyi əldə etmək və ya etməmək isə ruhların vəziyyətinə bağlıdır. Sadəcə yaxşı ruhlar xoşbəxtliyə çata bilər.  Yaxşı olmayan insanlaryaxşı görünən, amma əslində olmayan obyektə bürünmüş insanlardır.

Düşüncələrimizi dünya yerinə öz üzərimizdə sıxlaşdırmalıyıq. Bu səbəblədə Delfi məbədinə məxsus qədim ifadəni mənimsəmişdi:

"Gnothi Seauton" (özünü dərk et!)



Pol Stratern  (1940 - ) Şotland-İrland əsilli yazıçı

Dublin Trinity kollecində fəlsəfə təhsil alıb. Kinqston universitetində riyaziyyat, elm və fəlsəfə üzrə mühazirələr oxuyub. "90 dəqiqədə filosoflar", "Böyük düşüncə: Dünyanı dəyişdirən elm adamları" kimi qısa kitab seriyalarının müəllifidir. .Romanları ilə yanaşı səfər təəsüratları, elm, fəlsəfə, tarix, ədəbiyyat, tibb və iqtisadiyyat mövzulu çoxsaylı kitabların da müəllifidir.